RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 281 (8304) ÇƏRŞƏNBƏ, 18 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Ən güclülər sırasındakı islahatçı ölkə

## Azərbaycanın qüdrətli dövlətlər arasında qərarlaşmasının ABŞ tərəfindən elan olunması Prezident İlham Əliyevin tam müstəqil siyasətinə verilən növbəti yüksək dəyərdir

**Dayanıqlı inkişaf və tərəqqi yolu, yüksələn reytinq və qazanılan iqtisadi-siyasi dividendlər, sistemli islahatlar və onun uğurlu nəticələri...**

**Bütün bunlar həm geoiqtisadi, həm də geosiyasi mövqelərini daim möhkəmləndirən Azərbaycanın əldə etdiyi müsbət göstəricilər, reallıqlardır. Əlbəttə ki, bu uğurları yalnız biz yox, beynəlxalq iqtisadi forumların, reytinq təşkilatlarının hesabatları da təsdiqləyir.**

Davos Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik Hesabatı”, Dünya Bankının “Doing Business”, “Moody's”, “Standard & Poor's”, “Fitch Ratings”, ABŞ-ın “The Heritage Foundation” analitik mərkəzinin “İqtisadi Azadlıq İndeksi”, ABŞ-ın “U.S.News & World Report” jurnalının hazırladıqları hesabatlarda, reytinq siyahılarında Azərbaycan, demək olar ki, hər il yüksəlişdədir.

Təbii ki, Azərbaycanın yüksək mövqelərdə qərarlaşması hər hansı reytinqlə bağlı deyil. Reytinq və hesabatlarda ölkəmizin mühüm yer tutması sadəcə bu gün Azərbaycana xaricdən baxışın necə olduğunun göstəricisidir.

Bu günlərdə Amerikanın “U.S.News & World Report” jurnalında dərc edilən dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycanın 80 ölkə arasında 45-ci yerdə qərarlaşması da növbəti uğurumuzdur. Əlbəttə ki, Cənubi Qafqazın lider dövlətinin ən güclü ölkələrin reytinqində bu mövqedə qərarlaşmasının təməlində də ölkənin inkişafı dayanır. Bu siyasətin müəllifi isə ən islahatçı Prezident adlandırılan cənab İlham Əliyevdir.

ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin birinin saytında dərc edilən reytinq siyahısı Pensilvaniya Universitetinin “BAV Group and Wharton School” qrupunun analitikləri tərəfindən tərtib edilib. Siyahı tərtib edilən zaman ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb.

İqtisadi vəziyyətə nəzər yetirdikdə görərik ki, son 15 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Azərbaycan hərbi qüdrətinə görə də dünyanın ən güclü ordularından birinə sahibdir. Ordumuz dünyanın 50 ən güclü silahlı birləşmələri sırasındadır.

*Ardı 6-cı səh.*

## Ukrayna Prezidenti Vladimir Zelenskinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan Ukrayna əlaqələri yüksək səviyyədədir

## Rəsmi qarşılanma mərasimi









Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenskinin dekabrın 17-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Prezident Vladimir Zelenskinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Vladimir Zelenskini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.

Vladimir Zelenski Azərbaycan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Ukraynanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Vladimir Zelenskiyə, Ukrayna nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan və Ukrayna prezidentlərinin qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

## Qətər Dövlətinin Əmiri əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Qətər əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*




## Azərbaycan Xəzərdə də ön mövqeyə çıxır

### Bu dənizdə ən böyük donanma ölkəmizə məxsusdur

Azərbaycanda islahatların həyata keçirilməsi artıq ənənəyə çevrilmişdir və bununla kimisə təəccübləndirmək mümkün deyil. Bu islahatlar qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, iqtisadiyyatın yeni və daha mürəkkəb sahələrinin yaradılmasına təkan vermişdir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və “Azərbaycan” adlı gəmi-bərənin suya salınması mərasimində iştirak etmişdir. Bununla bağlı keçirilən mərasimdə qeyd olundu ki, özünəməxsusluğu ilə seçilən “Laçın” adlı neft tankeri Odessa Dəniz Mühəndisliyi Bürosunun layihəsi əsasında yerli mütəxəssislər tərəfindən inşa edilmişdir.

Həqiqətən, bu hadisə Azərbaycanın tarixində unikal hadisədir. Ölkəmizdə belə bir gəminin sıfırdan inşası gəmiçiliyin inkişafı istiqamətində atılan ilk uğurlu addım kimi qiymətləndirilə bilər.

*Ardı 6-cı səh.*

## Seçkilərin demokratik keçməsi üçün hər cür şərait yaradılıb



Bələdiyyə seçkilərinə cəmi bir neçə gün qalır. Seçkilərin mütəşəkkil və demokratik keçməsi üçün məntəqələrdə hazırlıq işləri başa çatdırılıb. Seçicilər işgüzar, savadlı, vətəndaşlarla işləmək qabiliyyəti olan insanları namizəd verməklə bu qurumun fəaliyyətini daha da canlandırmağı qarşılarına məqsəd qoymuşlar.

Gəncədə də dairə seçki komissiyalarını əhatə edən məntəqələrdə bələdiyyə seçkilərinə ciddi hazırlıq işləri görülmüşdür. 38 saylı Nizami II (Gəncə) Seçki Dairəsində də bunun şahidi olduq. Dairə seçki komissiyasının sədri Məntiq Cəfərovla söhbət zamanı dedi ki, dairəni əhatə edən 25 seçki məntəqəsinin hamısında hazırlıq işləri başa çatıb.

*Ardı 6-cı səh.*

# Azərbaycan Ukrayna əlaqələri yüksək səviyyədədir

## Prezident İlham Əliyevin və Prezident Vladimir Zelenskinin təkbətək görüşü



Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukraynanın Prezidenti Vladimir Zelenskinin təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident Vladimir Zelenskini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident, mən Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Əminəm ki, səfəriniz uğurlu olacaq və Ukrayna-Azərbaycan əlaqələrinin inkişafına təkan verəcəkdir. Fürsətdən istifadə edərək, prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi təbrik edirəm. Şadam ki, qələbədən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, onu göstərir ki, Siz Ukrayna-Azərbaycan əlaqələrinin inkişafına böyük diqqət göstərirsiniz. Biz də bu münasibətlərə böyük diqqət göstəririk.

İkitərəfli gündəlik kifayət qədər genişdir. Bu gün həm siyasi əlaqələr, iqtisadi sahədə əməkdaşlıq, humanitar və digər sahələrdə əlaqələr müzakirə olunacaq. Əminəm ki, keçiriləcək danışıqlar və imzalanacaq sənədlər bizim əlaqələrimizi daha da möhkəmləndirəcək.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Ukrayna Prezidenti Vladimir ZELENSKİ** dedi:

- Cənab Prezident, xoş sözlərinizə görə təşəkkür edirəm. Azərbaycana rəsmi səfərə dəvət edilməyimə görə də Sizə dərin minnətdarlığımı bildirirəm. Səmimi demək istəyirəm ki, mən bundan əvvəl də Azərbaycanda səfərdə olmuşam. Azərbaycana hər səfərimdən sonra mən Ukraynaya yeni hisslərlə, yeni emosiyalarla və yeni dostlarla qayıdıram. Azərbaycan çox qonaqpərvər torpaqdır. Fürsətdən istifadə edərək Sizi də Ukraynaya rəsmi səfərə dəvət edirəm. Əmin edirəm ki, biz də olduqca qonaqpərvər bir ölkəyik.

Ölkələrimiz arasında hazırda da olduqca möhkəm münasibətlər var. Əminəm ki, bu səfərin nəticəsi olaraq biz onu yeni mərhələyə qaldıra biləcəyik. Azərbaycana minnətdarlığımızı bildirmək istəyirik ki, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Xahiş edirəm biləsiniz ki, biz də, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik.

## Azərbaycan və Ukrayna prezidentlərinin geniş tərkibdə görüşü keçirilib



Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Mən sizi bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz iki ölkə arasındakı əlaqələrə çox güclü təkan verəcək. Biz artıq təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və bir daha gördük ki, ikitərəfli gündəlik kifayət qədər genişdir. İndi geniş tərkibdə danışıqlarda biz məsələləri ətraflı müzakirə edəcəyik. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Bir çox önəmli məsələlər müzakirə olundu, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər. Ənənəvi olaraq energetika, nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam etdirilir. Təkbətək görüşdə biz bu əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Bir önəmli sahə də kənd təsərrüfatıdır. Biz əvvəlki illərdə Ukraynadan bir çox kənd təsərrüfatı texnikası almışıq. Əlbəttə ki, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər böyük maraq doğurur. Əminəm ki, bu gün keçiriləcək Ukrayna-Azərbaycan biznes forumu biznes dairələri arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Ukrayna Prezidenti Vladimir ZELENSKİ** dedi:

- Möhtərəm cənab Prezident, hörmətli nümayəndə heyəti.

Bir daha hamınıza təşəkkürümü bildirirəm. Bu gün Azərbaycanda ilk rəsmi səfərdə olmağım çox böyük məmnunluq doğurur. Xüsusilə ona görə ki, Azərbaycan bizim üçün çox qonaqpərvər və dost ölkədir.

Cənab Prezident, biz müzakirələrdə münasibətlərimizin yaxşı səviyyədə olduğunu qeyd etdik. Ancaq düşünürəm ki, Azərbaycan-Ukrayna münasibətlərini növbəti daha yüksək mərhələyə qaldırmağa böyük imkanlar var. Cənab Prezidentlə razılığa gəldik ki, yaxın zamanda Azərbaycandan bir işçi heyət Ukraynaya səfər edəcək və orada bizim bütün şirkət və müəssisələrdə olub, imkanları yerində araşdıracaq. Energetika, kənd təsərrüfatı, turizm, infrastrukturun inkişafı sahələri bizim üçün böyük maraq kəsb edir.

**Prezident İlham Əliyev:** Sağ olun.

## Azərbaycan-Ukrayna sənədləri imzalanıb

Dekabrın 17-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Gəncə şəhəri və Odessa şəhəri arasında Niyyət Protokolunu, Quba şəhəri ilə Truskavets şəhəri arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müqaviləni Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev və Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski imzaladılar.



Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında sazişi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə Ukraynanın Dövlət Xüsusi Rabitə və Məlumatın Mühafizəsi Xidməti Administrasiyası arasında Bakı-Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında sazişi Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri Vadim Pristayko imzaladılar.

## Azərbaycan və Ukrayna prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



**Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyev bəyanatla çıxış etdi.**

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük önəm veririk və şadam ki, səfər çox uğurlu keçir. Bu gün aparılan danışıqlar bir daha onu göstərir ki, gələcək əməkdaşlıq üçün çox gözəl imkanlar və perspektivlər vardır.

Mən çox şadam ki, Prezident vəzifəsinə seçilməyinizdən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, Sizin bizim ölkəmizə olan diqqətinizin təzahürüdür. Biz də Ukrayna-Azərbaycan əlaqələrinin inkişafına çox böyük diqqət veririk. Bu gün həm təkbətək formatda, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə danışıqlarda Ukrayna-Azərbaycan ikitərəfli əlaqələrinin müxtəlif aspektləri geniş müzakirə olundu və çox səmərəli fikir mübadiləsi aparıldı.

Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir. Prezidentin Azərbaycana rəsmi səfəri bunu təsdiqləyir. Bu gün biz ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışdıq. Düzdür, bu il ticarət dövriyyəmiz təqribən 20 faiz artmışdır. Ancaq mütləq rəqəmlər bizi qane edə bilməz və bu gün gələcək əməkdaşlıqla bağlı konkret məsələlər müzakirə olundu.

Bu gün bir qədər sonra keçiriləcək Ukrayna-Azərbaycan biznes forumu da, əminəm ki, iqtisadi sahədə, biznes dairələrinin birgə fəaliyyəti sahəsində çox önəmli addım olacaqdır. Bu biznes foruma həm Ukraynanın, həm də Azərbaycanın biznes dairələrindən çox böyük maraq var. Əminəm ki, konkret məsələlər müzakirə ediləcək.

Təbii ki, Ukrayna-Azərbaycan ikitərəfli Hökumətlərarası Komissiyasının fəaliyyətindən çox şey asılıdır. Əfsuslar ki, son bir neçə il ərzində komissiya, demək olar, fəaliyyət göstərmirdi. Ancaq biz indi birgə qərarla komissiyanın fəaliyyətinə yeni təkan veririk. Razılaşdırdıq ki, gələn ay artıq komissiya yığışacaq və prezidentlər tərəfindən verilən tapşırıqlar geniş müzakirə ediləcəkdir.

Ticarət dövriyyəsinin artırılması ilə yanaşı, birgə sərmayə qoyuluşu layihələri böyük maraq doğurur. Biz bu barədə də geniş fikir mübadiləsi apardıq. Həm Ukraynanın Azərbaycana, həm də Azərbaycanın Ukraynaya sərmayə qoyuluşu ilə bağlı konkret təkliflər vardır. Hesab edirəm ki, bu təkliflər həyatda öz əksini tapa bilər. Bir çox sahələrdə birgə sərmayə layihələri bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Energetika sahəsində əməkdaşlıq müzakirə edildi. SOCAR artıq uzun illərdir ki, Ukraynada fəaliyyət göstərir, altmışdan çox yanacaqdoldurma məntəqəsi, dörd neft bazası vardır. Bu gün biz bir daha bu məsələni müzakirə edərkən razılığa gəldik ki, SOCAR Ukraynadakı fəaliyyətini genişləndirəcək və konkret addımlar atılacaqdır.

Əvvəlki illərdə kənd təsərrüfatı sahəsində əməkdaşlıq aparılırdı. Biz Ukraynadan 400-dən çox kənd təsərrüfatı texnikasını almışıq və bu əməkdaşlığı davam etdirmək istəyirik.

Digər önəmli məsələ, - bu gün bu məsələyə kifayət qədər böyük vaxt ayrıldı, - turizmin inkişafıdır. Həm Azərbaycanın, həm Ukraynanın çox böyük və zəngin turizm imkanları vardır. Bu sahədə də birgə əməkdaşlıq, təcrübə mübadiləsi, birgə layihələr müzakirə edildi, geniş fikir mübadiləsi aparıldı və konkret tapşırıqlar verildi.

Həm Ukraynada, həm Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Xəzər dənizi, Qara dəniz nəqliyyat dəhlizləri bizim ölkəmizin iştirakı ilə fəaliyyət göstərir. Mən Prezidentə məlumat verdim ki, son illərdə Azərbaycanda bu sahəyə çox böyük investisiyalar qoyulub. Artıq Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçməklə geniş beynəlxalq əməkdaşlığa da təkan verir, əməkdaşlıq üçün yeni imkanlar açır. Ona görə bu sahədə birgə səylərlə reallaşdırılan "Şərq-Qərb nəqliyyat dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu, "Vikinq" layihəsi - bütün bu layihələr bizim ölkələrimizi və geniş mənada regional əməkdaşlığı daha da möhkəmləndirəcək, ölkələrimizə fayda verəcəkdir.

Təbii ki, humanitar sahədə əməkdaşlığa da yer ayrıldı. Azərbaycanda Ukrayna mədəniyyətinə çox böyük hörmət var, Ukrayna dili tədris edilir. Bakı Slavyan Universitetində Ukrayna Mərkəzi vardır. Eyni zamanda, Ukraynanın ali məktəblərində Azərbaycan tarixinə, ədəbiyyatına kifayət qədər böyük yer ayrılır. Təbii ki, humanitar sahədə əməkdaşlıq ümumi əməkdaşlığa da müsbət təsir göstərir.

Əlbəttə ki, biz mətbuata verilən bu açıqlamada müzakirə edilmiş bütün məsələləri sadalaya bilmərik. Çünki çox vaxt aparacaq. Ancaq deyə bilərəm ki, davam etməsinə baxmayaraq, bu səfər bütövlükdə çox uğurlu səfər kimi qiymətləndirilə bilər. Əminəm ki, bu səfər Ukrayna-Azərbaycan əlaqələrinin inkişafında yeni səhifənin açılmasına gətirib çıxaracaq. Biz konkret məsələləri müzakirə edib, konkret tapşırıqlar verdik. Ümid edirəm ki, bu tapşırıqlar aidiyyəti qurumlar tərəfindən uğurla icra ediləcəkdir.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizə və Ukrayna xalqına bir daha yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonra Prezident Vladimir Zelenski bəyanatla çıxış etdi.

### Ukrayna Prezidenti Vladimir Zelenskinin bəyanatı

-Hörmətli cənab Prezident, hörmətli media mənsubları.

Cənab Prezident, əvvəlcə Sizə bu dəvətə görə təşəkkürümü bildirirəm, gözəl ölkənizə səfər edirik. Sizin bu qonaqpərvərliyinizə görə minnətdaram.

Bizim münasibətlərimiz zamanın sınağından keçib. Biz çətin vaxtlarda bir-birimizə hər zaman dayaq olmuşuq. Azərbaycan Ukrayna üçün həmişə etibarlı dost və mühüm strateji tərəfdaş olmuşdur və bu gün də bu, belədir.

Cənab Prezident, artıq qeyd etdiyiniz kimi, biz müzakirələrimizi bitirmişik, həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə söhbətimiz çox səmimi şəraitdə keçmişdir. Biz cənab Prezidentlə tərəfdaşlığımızın sözdə deyil, əməldə gücləndirilməsini müzakirə etdik. Xüsusilə də burada iqtisadi sahəyə diqqət yetirilmişdir. Əminəm ki, hər iki ölkədə Ticarət evlərinin açılması da buna təkan verəcəkdir. Məlumdur ki, 2018-ci ildən Ukraynada Azərbaycan Ticarət Evi fəaliyyət göstərir, bu gün isə mən Azərbaycanda Ukrayna Ticarət Evinin açılışında iştirak edəcəyəm. Bu münasibətlə hər birimizi təbrik edirəm.

Bununla yanaşı, bu gün Bakıda Azərbaycan-Ukrayna biznes forumu təşkil ediləcəkdir. Əminəm ki, ölkələrimizin işgüzar dairələri qarşılıqlı maraq doğuran müxtəlif məsələləri müzakirə edəcək və konkret nəticələr əldə edəcəklər.

Əminəm ki, qarşılıqlı sərmayə qoyuluşu hər iki ölkənin mənafelərinə xidmət edir, burada müxtəlif birgə layihələrdən söhbət gedə bilər. Məsələn, Azərbaycanın mobil operatoru olan "Bakcell" tərəfindən "Vodafone Ukrayna"nın səhmlərinin alınması yaxşı bir nümunədir. Bu, bizim bu sahədə olan xidmətlərin yüksəldilməsinə kömək edəcəkdir. Bununla yanaşı, mən Azərbaycan şirkətlərini də Ukraynada özəlləşdirmədə fəal iştiraka dəvət edirəm. Artıq 10 ildir ki, SOCAR Ukraynada uğurla fəaliyyət göstərir. Biz də əlimizdən gələni edəcəyik ki, neft-qaz məhsullarının hasilatı və daşınmasına da hər cür dəstək göstərək.

"Cənub qaz dəhlizi" layihəsi də bizim ölkəmiz tərəfindən xüsusi izlənilir. Bu layihənin genişləndirilərək Avropa istehlakçılarına çatdırılmasına öz töhfəmizi müzakirə etdik. Xüsusilə də hesab edirəm ki, bizim - həm Ukraynanın, həm Azərbaycanın misilsiz nəqliyyat potensialı var. Biz belə qərara gəldik ki, nəqliyyat və aviasiya daşımaları sahələrində də təmaslarımızı, əməkdaşlığımızı gücləndirək. Növbəti il yanvarın sonunadək biz Kiyev şəhərində ikitərəfli Hökumətlərarası Komissiyanın iclasını təşkil edəcəyik.

Aerokosmik sahədə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. Müxtəlif sahələrdə, təyyarə istehsalı sahəsində, o cümlədən humanitar sahədə də məsələləri müzakirə etdik. Azərbaycanda Ukrayna kinosu günləri təşkil ediləcəkdir. Sizin də şahidi olduğunuz kimi, burada bir neçə sənəd - həm biznesin inkişafı, həm məxfi məlumatların qorunması və Ukraynanın müxtəlif bölgələrinin Azərbaycanın bölgələri ilə əməkdaşlığının təşviqi ilə bağlı sənədlər imzalandı.

Təbii ki, bizim bugünkü söhbətimizin əsas hissəsini milli və regional təhlükəsizlik məsələləri təşkil edirdi. Biz burada Dağlıq Qarabağ münaqişəsi və Ukraynanın şərqində baş verən münaqişəni müzakirə etdik. Biz bir-birimizi ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində də bizim əməkdaşlığı özündə ehtiva edir. Bu, bizim ölkələrimizin arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik. Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edirəm.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, bu, mənim ölkənizə ilk rəsmi səfərimdir. Bu səfər yeni başlayıb, amma artıq məndə belə bir əminlik var ki, bu, bizim əməkdaşlığımızın yeni səviyyəsinin göstəricisi olacaqdır. Əminəm ki, bu, bizim gələcək potensialımızın inkişafına xidmət edəcəkdir. Təşəkkür edirəm.

# Azərbaycan Ukrayna əlaqələri yüksək səviyyədədir

## Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib

### Azərbaycan və Ukrayna prezidentləri biznes forumda iştirak ediblər






**Dekabrın 17-də Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski biznes forumda iştirak ediblər.**

**Dövlət başçıları biznes forumda çıxış etdilər.**

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün Azərbaycan-Ukrayna biznes forumunda Ukraynadan 90-dan çox şirkət, Azərbaycandan isə 100-dən artıq şirkət təmsil olunur. Bu rəqəmlər özlüyündə bir göstəricidir. Onu göstərir ki, belə biznes forumun keçirilməsinə böyük maraq var. Sözün düzü, çoxdandır ki, Ukrayna-Azərbaycan biznes forumları keçirilmirdi. Onu da bildirməliyəm ki, çoxdandır hökumətlərarası komissiya fəaliyyət göstərmirdi. Bu gün Prezident Zelenskinin səfəri zamanı bütün bu məsələlər geniş müzakirə olundu. Müzakirə edilən məsələlərin arasında iqtisadi-ticari məsələlər xüsusi yer tutmuşdur.

Mən hesab edirəm ki, Prezidentin səfəri bütövlükdə çox uğurludur. Biz bu gün çox geniş fikir mübadiləsi aparmışıq, bir neçə önəmli sənəd imzalanıb. Əsas odur ki, bizim aramızda yaranan qarşılıqlı etimad, əminəm ki, Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli rol oynayacaq.

O ki qaldı iqtisadi əlaqələrə, burada istifadə olunmamış çox böyük potensial var. Bu gün biz bu barədə fikir mübadiləsi apardıq, gördük ki, bu il ticarət dövriyyəsinin artmasına baxmayaraq, mütləq rəqəmlər bizi qane edə bilməz. Xüsusilə Azərbaycanın Ukraynaya ixracı birtərəflidir, yəni bu, enerji daşıyıcıları əsasında formalaşır. Biz çox istərdik ki, Ukraynaya ixracımızı şaxələndirək və bu məqsədlə bir neçə addım atılmışdır, o cümlədən keçən il Kiyevdə Azərbaycanın ticarət evi açılmışdır. Hesab edirəm ki, belə ticarət evlərinin sayı çox olmalıdır və bu gün Bakıda Ukraynanın ticarət mərkəzi açılmışdır. Bu da çox gözəl hadisədir.

Beləliklə, qarşılıqlı ticarətin təşviqi üçün çox önəmli addımlar atılacaq. Eyni zamanda, hesab edirəm ki, biz sərmayə qoyuluşu məsələlərində yeni mərhələyə qədəm qoya bilərik. Son 15 il ərzində Azərbaycana 270 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayənin yarısı xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmizdə çox gözəl investisiya iqlimi vardır, xarici investorların maraqları və buraya qoyulan vəsait dövlət tərəfindən qorunur. Ukraynada da investisiya iqlimi yaxşılaşır. Biz bunu görürük və böyük investisiyalarla, özəlləşdirmə ilə bağlı böyük planlar var. Bu barədə biz Prezidentlə danışdıq, hesab edirəm ki, Azərbaycan şirkətləri müxtəlif investisiya layihələrində fəal iştirak etməlidirlər. Biz razılaşdıq ki, gələn ilin əvvəlində Ukraynada Hökumətlərarası Birgə Komissiyanın iclası keçiriləcək. Biz bu komissiyanın iclasına ciddi hazırlaşmalıyıq. İclasda həm dövlət qurumlarının, həm də özəl sektorun nümayəndələri iştirak etməlidirlər. Bu komissiyanın işinin konkret nəticələri olmalıdır və ondan sonra bizə məruzə edilməlidir.

Biznes dairələri çox həssasdır. Onlar adətən sərmayə qoyuluşu məsələlərinə çox böyük həssaslıqla, ehtiyatla yanaşırlar və dövlət qurumlarından müvafiq siqnallar gözləyirlər. Hesab edirəm ki, bizim Prezident Zelenski ilə bu biznes forumda birgə iştirakımız biznes dairələrinə ən gözəl siqnaldır. Hesab edirəm ki, onlar da bunu düzgün başa düşməli və nəticə çıxarmalıdırlar. Nəticədə o olmalıdır ki, bizim iqtisadi əlaqələrimiz daha sıx olsun. Əməkdaşlıq üçün çox geniş imkanlar vardır. Mən sərmayə qoyuluşunu qeyd etdim, eyni zamanda, həm Azərbaycanda, həm də Ukraynada turizm sahəsində böyük imkanlar var. Bizim ölkələrimizin çox zəngin, füsunkar təbiəti, inkişaf etmiş infrastrukturu var, ona görə bu sahəyə də diqqət yetirilməlidir.

Kənd təsərrüfatında əməkdaşlıq uğurla davam etdirilə bilər. Bugünkü əməkdaşlığın səviyyəsi, əlbəttə ki, bizi qane edə bilməz. Bütövlükdə bütün sahələrdə biz əməkdaşlığa açığıq və hesab edirəm ki, səfərin bu məsələlərin həllində çox önəmli rolu olacaqdır.

O ki qaldı Azərbaycanda iqtisadi vəziyyətin inkişafına, ukraynalı qonaqlara bildirməliyəm ki, - artıq bunu qeyd etdim, - ölkəmizdə investisiya iqlimi çox müsbətdir və qoyulan sərmayənin həcmi bunu əyani şəkildə göstərir. Son 15 il ərzində Azərbaycanda iqtisadi artım çox sürətlə gedib, deyə bilərəm ki, iqtisadiyyat üç dəfədən çox artmışdır. Yəni, ümumi daxili məhsul 300 faizdən çox artmışdır və əlbəttə, bu, imkan verdi ki, biz həm iqtisadi gücümüzü artıraq, həm də infrastruktur layihələrini icra edək. Əgər 15 il bundan əvvəl yoxsulluq təxminən 50 faiz səviyyəsində idisə, bu gün bu, 5 faiz səviyyəsindədir. Yəni, bu, onu göstərir ki, təbii resurslardan əldə edilmiş gəlirlər cəmiyyətdə bərabər şəkildə bölünür və cəmiyyətin hər bir təbəqəsi bundan fayda görür.

Bu il biz çox ciddi sosial paket təqdim etdik. Əhalimizin təxminən yarısı - 4 milyon 200 min nəfər geniş sosial paketlə əhatə olundu, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər isə 100 faiz artırıldı və Azərbaycan dövləti öz siyasətinin mahiyyətini bir daha göstərdi. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və biz əldə edilmiş əlavə gəlirləri, ilk növbədə, sosial layihələrə yönəldirik. Eyni zamanda, təbii ki, infrastruktur layihələri də önəmli yer tutur.

Biznes mühitini xarakterizə etmək üçün bildirməliyəm ki, Azərbaycan iqtisadiyyatının 85 faizi özəl sektorda formalaşır. Bu, o deməkdir ki, geniş özəlləşdirmə prosesi artıq tamamlanmaq üzrədir. Dövlətin inhisarında yalnız strateji aktivlər qalıbdır. Məsələn, Dövlət Neft Şirkəti - bizim enerji şirkətimiz, su şirkətimiz, yol tikintisi şirkəti, dəmir yolu, Xəzər Gəmiçiliyi, AZAL - bizim hava yolları və bir neçə başqa şirkət. Onlardan başqa bizim bütün digər qurumlarımız özəl sektorda fəaliyyət göstərir və əlbəttə ki, bu, xarici investorlar üçün də çox gözəl iqlim yaradır.

Son dövrlərdə vergi və gömrük orqanlarında aparılan islahatlar bu sahələrdə öz nəticəsini verməkdədir. Ölkəmizdə bu sahələr çox problemli sahələr idi. Amma son bir neçə il ərzində çox ciddi islahatlar aparıldı və artıq bu sahələr şəffaflaşdı və biznes dərhal müsbət reaksiya verdi. Bu ilin 11 ayında vergi və gömrük orqanları xəzinəyə plandan əlavə təqribən 600 milyon dollar vəsait daxil etmişlər. Xarici borcumuz çox aşağı səviyyədədir, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada doqquzuncu yerdədir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfə artıqdır. Yəni, biz istənilən vaxtda xarici borcu sıfırlaya bilərik. Bu yaxınlarda Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatına görə Azərbaycan təmiz donor ölkəsinə çevrilibdir. Yəni, biz indi borc alan ölkə deyil, borc verən ölkəyik. Biz özümüz də xarici ölkələrə sərmayə qoyuruq. Bu sərmayələr 20 milyard dollardan artıqdır. Bizim təşəbbüsümüzlə bölgədə çox önəmli enerji və nəqliyyat layihələri həyata keçirildi. Bu layihələrin həyata keçirilməsində xarici banklar, Avropa bankları, Asiya bankları bizə öz maliyyə dəstəyini göstərdi. Biz bu dəstək və daxili resurslarımız hesabına Xəzər dənizini neft kəmərləri ilə Qara dəniz və Aralıq dənizi ilə birləşdirdik. Eyni zamanda, Azərbaycandan Avropaya uzanan 3 min 500 kilometrlik qaz xətti artıq tamamlanmaq üzrədir. Gələn il biz bunun açılışını qeyd edəcəyik və beləliklə, Azərbaycan nəinki neft ixracatçısı, eyni zamanda, qaz ixracatçısı kimi dünyada öz sözünü deyəcək.

Bununla paralel olaraq biz artıq elektrik enerjisini də ixrac edirik, o cümlədən Avropaya. Artan enerji generasiya güclərimiz imkan yaradır ki, - təbii ki, biz daxili tələbatımızı ödəmişik, - başqa ölkələrin enerji təhlükəsizliyinə də töhfə veririk.

Bu gün müzakirə olunan məsələlərdən biri də nəqliyyatla bağlıdır və burada da əməkdaşlıq üçün çox geniş imkanlar var. Biz Ukraynanın nəqliyyat infrastrukturunu Azərbaycanın nəqliyyat infrastrukturu ilə birləşdirə və vahid tarif siyasəti apara bilsək, hesab edirəm ki, ölkələrimizin ərazisindən keçən yükdaşımaların həcmi kəskin artacaq. Biz keçən ilə nisbətən artımı görürük, ancaq hesab edirik ki, bu, daha da təsirli ola bilər.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Amma buna baxmayaraq, biz çox böyük investisiya layihələri ilə Azərbaycanı beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevirdik və ərazimizdən keçən "Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri" bizim bu rolumuzu artırır. Bu layihələr sonrakı digər layihələrə də təkan verdi, o cümlədən "Şimal-Qərb və Cənub-Qərb nəqliyyat dəhlizi" layihələri. Yəni, bütün bu yollar Azərbaycan ərazisindən keçir. Bu layihələr sırf iqtisadi və nəqliyyat layihələri deyil, geniş mənada beynəlxalq əməkdaşlığa da öz töhfəsini verir. Çünki bu dəhlizlər üzərində yerləşən ölkələr təbii müttəfiqlər statusuna qalxırlar. Beləliklə, bu layihələr, o cümlədən təhlükəsizliyə, əmin-amanlığa, qarşılıqlı anlaşmaya da xidmət göstərir. Hesab edirəm ki, bütün bu müsbət əsasları nəzərə alaraq biz qısa müddət ərzində həm ticarət dövriyyəmizi artıra, həm də böyük sərmayə qoyuluşu layihələrini icra edə bilərik. Beləliklə, bu biznes forumun konkret nəticələri olacaqdır. Biz bunu arzulayırıq, buna inanırıq. Azərbaycan və Ukrayna iş adamlarına uğurlar arzulayıram. Sağ olun.

## Prezident Vladimir Zelenskinin çıxışı

- Təşəkkür edirəm, cənab Prezident. Sizi və forumun bütün iştirakçılarını salamlamaq istəyirəm. Bu, həm Ukrayna, həm də Azərbaycan üçün çox mühüm hadisədir. Bilirəm ki, burada 90-dan çox Ukrayna şirkəti və 100-dən artıq Azərbaycan şirkəti iştirak edir. Bu gün bizim birlikdə olmağımız çox vacibdir. Təəssüf ki, bir neçə il ərzində belə forum keçirilməyib. Aydındır ki, əgər biz görüşməsək, dialoqa başlamasaq, normal investisiya mühiti ola bilməz. Əgər biz real işlər, real rəqəmlər barədə danışmasaq, biznes Ukraynaya gəlməyəcək və əksinə. Cənab Prezident çox mühüm iradını bildirdi. Bu, qarşılıqlı etimad məsələsidir.

Bu gün mən Sizin gözəl paytaxtınızda ilk dəfə rəsmi səfərdəyəm. Azərbaycan Prezidenti cənab İlham Heydər oğlu ilə ilk dəfə görüşdüm. Mən hiss edirəm ki, bizdə dialoq başlandı. Bundan sonra konkret addımlar atılmalıdır. Ona görə ki, insanlar nəyisə vəd edəndə onlar öz öhdəliklərini yerinə yetirməlidirlər. Belə hallar olub və öhdəliklər yerinə yetiriləndə biz etimad qazanırıq. Biz artıq razılaşdıq ki, gələn ay böyük hökumət nümayəndə heyəti Ukraynaya səfər edəcək və danışıqlar çərçivəsində iqtisadi sahədə ikitərəfli əməkdaşlığın mühüm məsələləri - infrastruktur, özəlləşdirmə məsələləri müzakirə olunacaq. Ukraynanın 400-dən çox müəssisəsi özəlləşdirmə üçün hazırdır. Biz real investisiyalar görmək istəyirik və hamını görməyə şadıq.

Ukrayna nümayəndə heyətinin tərkibində İnfrastruktur naziri gəlib. Biz çoxlu infrastruktur layihələrini həyata keçirmək niyyətindəyik, 16 min kilometr yol inşa etməyə hazırıq. Biz bunun marağındayıq ki, Azərbaycan şirkətləri Ukraynada yollar tiksinlər. Bilirik ki, onlar başqa ölkələrdə uğurla işləyirlər. Hamıya məlumdur ki, Azərbaycanın "Bakcell" mobil operatoru Ukrayna bazarına daxil olub və onun investisiyaları 700 milyon dollara yaxındır. Ukrayna dövləti olaraq bizim vəzifəmiz bu investisiyaları qorumaqdır. Əlbəttə, bütün bunlar qarşılıqlı etimad səviyyəsində həyata keçirilir. Biz çox istəyirik ki, Azərbaycan Ukraynaya sərmayə yatırsın. Biz, həmçinin istəyirik ki, Ukrayna da Azərbaycanda təmsil olunsun. Bizim güclü iqtisadi münasibətlərimiz, həmçinin tarixi münasibətlərimiz var.

Daha bir investisiya sahəsi turizm sferasıdır. Məsələn, Xerson vilayətinin rəhbəri burada iştirak edir. Cənab Qusev Xerson vilayətini təmsil etməyə hazırdır. Bu vilayət Ukraynada turizm üçün ən cəlbedici yerlərdən biridir. O, bu fəaliyyətə hazırdır, lakin infrastruktur çatışmazlığını hiss edir. Buna görə biz bu sahədə də investisiya layihələrinə dair təklifi nəzərdən keçirməyə hazırıq.

SOCAR şirkəti ilə bizim çox səmimi tərəfdaşlıq, dostluq münasibətlərimiz var. Ukrayna-Azərbaycan əməkdaşlığından söz düşəndə dərhal SOCAR-ı xatırlayırıq. Biz istəyirik ki, SOCAR şirkətinin Ukraynada fəaliyyəti genişlənsin. Biz SOCAR şirkətinin köməyi ilə sərhədin ayrı-ayrı hissələrində xidmətlər təqdim edilməsi üzrə bütöv komplekslər tikmişik və gələcəkdə bu fəaliyyəti genişləndirməyə hazırıq. Əminəm ki, bu, bizim ən maraqlı infrastruktur layihələrindən biri olacaq. Mənim bir ideyam var. Siz bir neçə dəfə rəqəmlər səsləndirdiniz - Azərbaycanda dövlət borcu azdır, son 15 ildə ümumi daxili məhsul 300 faizdən çox artıb. Bütün bunlar sizdə var, istərdik ki, bizdə də belə olsun.

## Azərbaycanın Baş Naziri və Ukrayna Prezidenti birgə işçi nahar ediblər



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski dekabrın 17-də birgə işçi nahar ediblər.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Ukrayna Prezidenti Vladimir Zelenski Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski dekabrın 17-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Şəhidlərin xatirəsinə ehtiram



Ukrayna Prezidenti Vladimir Zelenski dekabrın 17-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, burada Ukrayna Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Vladimir Zelenski Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Ukraynanın və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycan Ukrayna əlaqələri yüksək səviyyədədir

## Ali qonağın şərəfinə

**Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Ukrayna Prezidenti Vladimir Zelenskinin şərəfinə rəsmi ziyafət verilib.**

**AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Ukraynanın birinci xanımı Yelena Zelenskaya da iştirak ediblər.**

**Azərbaycan və Ukrayna prezidentləri ziyafətdə çıxış etdilər.**



### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident.

Hörmətli Yelena Vladimirovna.

Xanımlar və cənablar,

Cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha salamlayır və "Xoş gəlmisiniz!" deyirəm. Bu, Sizin Azərbaycana ilk rəsmi səfərinizdir və şadam ki, səfər çox uğurlu keçir. Bunu apardığımız müzakirələr, imzalanan sənədlər bir daha təsdiqləyir.

Ölkələrimizi və xalqlarımızı dostluq münasibətləri birləşdirir. Əlamətdar haldır ki, hələ 1918-1920-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərən 16 xarici dövlətin diplomatik missiyaları arasında Ukraynanın da nümayəndəliyi olmuşdur.

Bu gün biz ikitərəfli əlaqələrimizi nəzərdən keçirdik. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, səfəriniz zamanı əldə olunan razılaşmalar və imzalanan sənədlər əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

İqtisadi əlaqələrin inkişafı geniş müzakirə edildi. 2018-ci ildə ölkəmizlə xarici ticarət dövriyyəsinin həcminə görə Ukrayna 10-cu yeri tutmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2019-cu ilin yanvar-sentyabr aylarında Ukrayna ilə ticarət dövriyyəsi 20 faiz artmışdır. 2018-ci ildən Kiyevdə Azərbaycan Ticarət evi fəaliyyət göstərir, bu gün də Sizin iştirakınızla "Ukrayna məhsulları" Mərkəzi Kompleksinin açılışı olmuşdur. Bu gün Azərbaycan və Ukrayna iş adamlarının biznes forumunun açılış mərasimində iştirak etdik. Forumda təmsilçilik səviyyəsi və orada aparılan müzakirələr iqtisadi-ticarət əlaqələrimizin inkişafına marağın yüksək səviyyədə olduğunu göstərir.

Ölkələrimiz arasında enerji sahəsində uğurlu əməkdaşlıq mövcuddur. Ukraynada SOCAR-ın nümayəndəliyi fəaliyyət göstərir. Ukrayna ərazisində SOCAR-ın 62 yanacaqdoldurma məntəqəsi və "SOCAR Energy Ukraine" şirkətinə aid 4 neft bazası mövcuddur.

Azərbaycanla Ukrayna arasında mədəni və humanitar sahələrdə də əməkdaşlığın uğurlu təcrübəsi vardır. 2001-ci ildən Bakı Slavyan Universitetində Ukrayna Tədris-Mədəniyyət Mərkəzi, Ukraynanın da bir sıra təhsil ocaqlarında Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Ukraynanın böyük oğlu şair Taras Şevçenkonun xatirəsi Azərbaycanda əbədiləşdirilib. Onun heykəli Bakı və Zaqatalada ucaldılmışdır. Paytaxtımızın parklarından biri məşhur şairə-dramaturq Lesya Ukrainkanın adını daşıyır, həmin parkda onun büstü qoyulub. 2019-cu ildə Azərbaycanın görkəmli mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunur. Əlamətdar haldır ki, bu ilin mayında böyük şair Nəsiminin Kiyevdə heykəlinin rəsmi açılışı olmuşdur. Bakının əsas nəqliyyat qovşaqlarından biri Ukrayna dairəsi adlanır. Bütün bunlar xalqlarımız arasında mövcud olan möhkəm dostluğun göstəricisidir.

Ölkələrimizin regionları da bir-biri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətdə növbəti addım kimi Quba və Truskavets, Gəncə və Odessa şəhərləri arasında əməkdaşlığın qurulmasını göstərmək olar.

Azərbaycan regionda təhlükəsizliyin və əməkdaşlığın tərəfdarıdır. Lakin regionun ən ağrılı problemi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların da bununla bağlı bənzər qətnamələri var. 2018-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış Tərəfdaşlıq Prioritetləri sənədində də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur.

Hörmətli cənab Prezident, hörmətli Yelena Vladimirovna, Sizi bir daha salamlayıram.

### Prezident Vladimir Zelenskinin çıxışı

- Çox hörmətli İlham Heydər oğlu.

Çox hörmətli Mehriban Arif qızı.

Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Əvvəlcə Azərbaycan Respublikasına rəsmi səfərə dəvətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Mən əvvəllər də burada olsam da, yeni statusda Azərbaycana ilk dəfədir səfər edirəm. Ölkənizi ziyarət etdikcə onun gözəlliyinə və bənzərsiz rəngarəngliyinə, ən əsası isə azərbaycanlıların qonaqpərvərliyinə heyran qalıram.

Dostluq münasibətləri ildən-ilə möhkəmlənən xalqlarımızı bu oxşar xüsusiyyət də birləşdirir. Məşhur Azərbaycan atalar sözündə deyilir: "Xalqların dostluğu sülhün təməlidir".

Ukrayna ilə Azərbaycanın dövlətlərarası münasibətlərinin tarixi uzaq 1919-cu ildən başlayır. Məhz o zaman - 1919-cu il fevralın 8-də Ukraynanın Azərbaycandakı xüsusi diplomatik missiyasının başçısı İvan Kraskovski etimadnaməsini Azərbaycan Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskiyə təqdim etmişdir.

Ötən 100 ildə ölkələrimiz bir çox çətinliklərlə üzləşdilər, böyük uğurlara sevindilər, lakin hər zaman dostluq və iki müstəqil dövlətə qarşılıqlı hörmət prinsiplərinə sadiq qaldılar. Bu prinsiplərə Ukraynanın böyük dostu - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də riayət edirdi. Onun müdrik kəlamlarından birini xatırlatmaq istərdim: "Azadlıq və müstəqillik hər bir xalqın milli sərvətidir".

Ukrayna öz azadlığı və suverenliyini müdafiə etmək məcburiyyəti ilə üzləşdi. Biz sülhü və dövlətimizin ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edirik. Təəssüflər olsun ki, eyni təhdid öz ərazi bütövlüyünü bərpa etməyə çalışan Azərbaycan qarşısında da durub. Lakin mən əminəm ki, dövlətlərimiz bu sınaqlardan müvəffəqiyyətlə keçəcək. İnanıram ki, uzun zamandır gözlənilən sülh həm Ukrayna, həm də Azərbaycan torpaqlarında zəfər çalacaq.

Bu gün aparılan danışıqlar Ukrayna və Azərbaycan arasındakı münasibətlərə yeni təkan vermək üçün ortaq səy və siyasi iradənin olduğunu təsdiqlədi. Bunun üçün böyük potensiala və gözəl perspektivlərə malikik.

Hörmətli İlham Heydər oğlu, Azərbaycana dəvət etdiyinizə və səmimi qəbula, eləcə də ölkələrimiz üçün vacib bütün məsələlər üzrə aparılan açıq və konstruktiv dialoqa görə Sizə səmimi təşəkkürümü bildirirəm. Ukraynaya edəcəyiniz səfəriniz zamanı bu dialoqun davam etdirilməsinə şad olaram. Əminəm ki, birgə səylərlə biz dövlətlərimiz arasında mövcud strateji tərəfdaşlığı möhkəmlədə bilərik.

Yaşasın Ukrayna, yaşasın Azərbaycan!

## Azərbaycan və Qırğız xalqları ortaq köklərə və mədəniyyətə malikdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Qırğız Respublikası parlamentinin - Joqorku Keneşin sədri Dastanbek Cumabekovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Joqorku Keneşin sədri Dastanbek Cumabekov Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarını dövlət başçısına çatdırdı.

Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğızıstan Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə bu ilin oktyabrında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün uğurla keçirildiyi, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun da bu toplantıda iştirak etdiyi və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. Bu görüş zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğu bildirildi. Azərbaycanın TÜRKPA-nın IX plenar iclasına uğurla evsahibliyi edəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı xalqlarımızın ortaq köklərə və mədəniyyətə malik olduğu qeyd edildi, Türk Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində də əməkdaşlığın önəmi bildirildi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı, Bakı və Bişkek şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

## *Tanzila NARBAYEVA:* "Mehriban Əliyeva Azərbaycanda gedən inkişaf proseslərinə böyük töhfə verir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tanzila Narbayevanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ali Məclis Senatının sədri Tanzila Narbayeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlət başçısına çatdırdı. Qeyd etdi ki, Şavkat Mirziyoyev Azərbaycana səfəri zamanı burada gördüyü inkişaf proseslərindən Özbəkistana dərin təəssüratlarla qayıdıb.

Özbəkistan Ali Məclisi Senatının sədri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Özbəkistana səfərini səbirsizliklə gözlədiklərini qeyd etdi. Tanzila Narbayeva Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti ilə yaxından tanış olduqlarını deyərək onun Azərbaycanda gedən inkişaf proseslərinə böyük töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə bu il Azərbaycanda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün əhəmiyyəti vurğulandı, bu tədbirdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin də iştirak etdiyi və Özbəkistanın Türk Şurasına tamhüquqlu üzv olması məmnunluqla qeyd edildi. Söhbət zamanı TÜRKPA-nın Bakıda IX plenar iclasının uğurla keçəcəyinə, burada mühüm məsələlərin müzakirə ediləcəyinə və yaxşı nəticələrin əldə olunacağına əminlik bildirildi. Vurğulandı ki, bu tədbir ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrini bir daha təsdiq edəcək.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ukraynanın birinci xanımı Yelena Zelenskaya ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 17-də ölkəmizdə səfərdə olan Ukraynanın birinci xanımı Yelena Zelenskaya ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, çay süfrəsi arxasında keçirilən görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ukrayna Prezidentinin xanımı Yelena Zelenskayanı Bakıda görməkdən şad olduğunu bildirdi. Mehriban Əliyeva qeyd etdi ki, bu səfər ölkəmizlə daha yaxından tanış olmaq üçün gözəl imkandır.

Yelena Zelenskaya Bakıda olmaqdan və Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşməkdən məmnunluğunu ifadə etdi.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ukrayna Prezidentinin xanımı Yelena Zelenskaya Heydər Əliyev Mərkəzində olublar





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ukrayna Prezidentinin xanımı Yelena Zelenskaya dekabrın 17-də Heydər Əliyev Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Ukraynanın birinci xanımı Yelena Zelenskaya Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən sərgilərə baxdılar.

Mərkəzin direktoru Anar Ələkbərov məlumat verdi ki, burada yaradılan Heydər Əliyev Muzeyi Azərbaycan tarixinin və Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada Ulu Öndərə aid maraqlı faktlar, foto və video materiallar və digər nadir eksponatlar təqdim olunur.

Azərbaycanın Birinci vitse-prezidenti və Ukrayna Prezidentinin xanımı "Azərbaycan inciləri" sərgisində oldular.

Azərbaycan tarixini və mədəniyyətini əks etdirən bu ekspozisiyada ölkənin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir eksponatlar nümayiş etdirilir.

Ardı 5-ci səh.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ukrayna Prezidentinin xanımı Yelena Zelenskaya Heydər Əliyev Mərkəzində olublar





*Əvvəli 4-cü səh.*

Heydər Əliyev Mərkəzində izləyicilərə təqdim olunan daha bir nadir layihə "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisidir. Ekspozisiyada müxtəlif ölkələrin XVIII-XX əsrlərə aid 170-dən çox musiqi aləti nümayiş olunur.

Mərkəzdə yaradılan "Mini Azərbaycan" sərgisi isə Azərbaycanın tarixi və arxitektura binalarının maketi vasitəsilə ölkəmizin zəngin memarlıq nümunələrini görmək imkanı verir.

Mehriban Əliyeva və Yelena Zelenskaya "Kukla incəsənətdə" sərgisinə də baxdılar. Sərgidə 16 ölkədən 60 rəssam-heykəltəraşın əl işi olan 230 kukla nümayiş etdirilir. Onların arasında ukraynalı müəlliflərin də əl işləri yer alıb. Buradakı sənət əsərləri ümumilikdə 400-dən çox eksponatdan ibarət kolleksiyanın nümunələridir və onların əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir.

Heydər Əliyev Mərkəzində tanınmış fotoqraf, sovet fotoqrafiyasının klassiki Yakov Xalipin əsərlərindən ibarət "Avanqard davamçısı. Azərbaycan gündəliyi" adlı sərgi də fəaliyyət göstərir.

Yelena Zelenskaya Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazdı.

Qonağa Azərbaycan haqqında kitab hədiyyə edildi.

Ukrayna Prezidentinin xanımı mərkəzlə tanışlıqdan məmnun qaldığını bildirdi.

# Bakıda "Ukrayna məhsulları" ticarət şəbəkəsinin mərkəzi mağazası açılıb

Dekabrın 17-də Bakıda "Ukrayna məhsulları" ticarət şəbəkəsinin mərkəzi mağazasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski açılış mərasimində iştirak edib.

Ukrayna Prezidenti yeni açılan mağazada yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, "Ukrayna məhsulları" ticarət şəbəkəsi artıq iki ildən çoxdur ölkəmizdə fəaliyyət göstərir və Bakıda doqquz mağazası var. Ticarət şəbəkəsinin mağazalarında Ukraynadan gətirilən geniş çeşiddə ərzaq və içki məhsulları satılır.

Diqqətə çatdırılıb ki, gələn ilin fevralında Bakıda "Ukraynska Xata" adlı restoran da istifadəyə veriləcək.



Azərbaycan ilə Ukrayna arasında ticarət əlaqələrindən və dostluq münasibətlərindən danışan Prezident Vladimir Zelenski deyib:

- Bizim dövlətlərimiz arasında tarixi münasibətlərimiz var. Mən düşünürəm ki, əlaqələrimiz təkcə qarşılıqlı iqtisadi maraqlara və investisiya mühitinə əsaslanmır. Əlaqələrimiz daha yüksək səviyyədədir. Hər şeydən öncə zənnimcə, bu, xalqlarımız arasında bir-birinə olan rəğbətdir. Xalqlarımız bir-birinə qarşı isti münasibət bəsləyirlər. Bu, mənim Bakıya Prezident kimi birinci səfərimdir, birinci olsa da, sonuncu olmayacaq. Düşünürəm ki, səfərlərin sayını artırmaq lazımdır. İstəyərdik ki, Azərbaycanın ticarət imkanları Ukraynada geniş təqdim olunsun və əksinə.

# Prezident Vladimir Zelenski Bakı Slavyan Universitetində Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ilə tanış olub

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski və xanımı Yelena Zelenskaya dekabrın 17-də Bakı Slavyan Universitetində fəaliyyət göstərən Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, universitetin rektoru Nurlana Əliyeva və mərkəzin müdiri Lesya Kərimova Prezident Vladimir Zelenskiyə və xanımı Yelena Zelenskayaya burada yaradılan şəraitlə bağlı məlumat verdilər.

Bildirildi ki, universitetdə 2001-ci ildə yaradılan Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ölkələrimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verməkdədir. Mərkəz Azərbaycanda Ukrayna mədəniyyətinin təbliğində mühüm rol oynayır. Mərkəzin bazasında ukraynaşünas tələbələr Ukrayna dili və ədəbiyyatını öyrənirlər. Burada, həmçinin müxtəlif mədəni-kütləvi tədbirlər, Ukrayna tarixi və mədəniyyəti ilə bağlı yubiley gecələri keçirilir. Tədris-Mədəniyyət Mərkəzinin nəzdində yaradılan "Slavyanoçka" ansamblı Ukrayna səfirliyinin və Bakı Slavyan Universitetinin təşkil etdiyi müxtəlif mədəni-kütləvi tədbirlərdə iştirak edir.



Rektor Nurlana Əliyeva qeyd edib ki, mərkəzdə Ukrayna və Azərbaycanın mədəni irsinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri aparılır. Mərkəz Ukraynanın ölkəmizdəki səfirliyi, Ukraynanın Azərbaycan diasporu və Ukraynanın ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir.

Sonra "Slavyanoçka" ansamblı Ukrayna dilində mahnılar səsləndirdi.

Daha sonra Prezident Vladimir Zelenski və birinci xanım Yelena Zelenskaya Ukrayna diasporunun nümayəndələri ilə görüşdülər. Diaspor nümayəndələri Azərbaycandakı fəaliyyətləri haqqında Prezidentə məlumat verdilər. Diasporun fəaliyyətini yüksək qiymətləndirən Vladimir Zelenski yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə etdi.

# Səfər başa çatdı

Ukrayna Prezidenti Vladimir Zelenskinin Azərbaycan Respublikasına rəsmi səfəri dekabrın 17-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Ukrayna Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ukrayna Prezidenti Vladimir Zelenskini və xanımı Yelena Zelenskayanı hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.



# Azərbaycan-Qırğızıstan əlaqələri daha da möhkəmlənir



Dekabrın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA-nın) 9-cu plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qırğız Respublikası parlamentinin - Joqorku Keneşin sədri Dastanbek Cumabekovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, Qırğızıstan nümayəndə heyətinin ölkəmizə səfəri parlamentlərarası dialoqun daha da genişlənməsinə öz töhfəsini verəcək. Sədr TÜRKPA-nın tədbirləri çərçivəsində qonaqla görüşünü xatırlayaraq ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Bildirilib ki, hər iki ölkə başçılarının görüşləri zamanı aparılan danışıqlar və imzalanmış sənədlər əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı zəmin yaradıb. Biz iqtisadi, həmçinin həyatın digər sahələrində də əlaqələrimizi daha da genişləndirmək niyyətindəyik.

Sədr Türkdilli Ölkələrin Parlament Assambleyasının Bakıda keçiriləcək növbəti plenar iclası barədə öz fikirlərini açıqlayaraq ötən illər ərzində bu qurumun mötəbər beynəlxalq təşkilata çevrilməsi istiqamətində görülən işləri yüksək dəyərləndirib. Bildirilib ki, TÜRKPA təkcə ona üzv ölkələr üçün deyil, həm də bütün türk dünyası üçün böyük əhəmiyyət daşıyır. Təşkilat türk xalqlarını maraqlandıran məsələlərin müzakirəsi və qarşıya qoyulan məqsədlərə çatmaq üçün gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından çox önəmlidir. Biz qurumun sıralarına yeni üzv ölkələrin qəbul olunacağına inanırıq.

Sədr Oqtay Əsədov Qırğızıstan nümayəndə heyətinə təşkilatın Bakıda keçiriləcək sessiyasının işində uğurlar arzulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Qırğız Respublikası parlamentinin - Joqorku Keneşin sədri Dastanbek Cumabekov ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. O, Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi barədə aparılan müzakirəni yüksək dəyərləndirib. Qonaq deyib ki, müstəqil Azərbaycanın Milli Məclisində keçirilən bu görüş parlamentlər səviyyəsində münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir.

Dastanbek Cumabekov TÜRKPA çərçivəsində görülən işləri yüksək qiymətləndirərək qurumun növbəti sessiyasının türk birliyi üçün uğurlu olacağına inamını ifadə edib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, deputat Ağalar Vəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

***Foto F.BAĞIROVUNDUR***

# Bakıda Azərbaycan-Ukrayna iqtisadi-ticarət əməkdaşlığı müzakirə olunub

## Ukraynanın Xerson vilayəti Dövlət Administrasiyası ilə "SOCAR Energy Ukraine" şirkəti əməkdaşlıq memorandumu imzalayıb






Dekabrın 17-də Bakıda Azərbaycan-Ukrayna iqtisadi-ticarət əməkdaşlığına dair müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə hər iki tərəfdən sənaye, maşınqayırma, kənd təsərrüfatı, tikinti, energetika, nəqliyyat-logistika, bankçılıq, tibb və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

Azərbaycan-Ukrayna iqtisadi-ticarət əməkdaşlığı barədə məlumat verən İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçılarının bu gün keçirilən Azərbaycan-Ukrayna biznes forumda iştirakının əlaqələrin inkişafına ən yüksək səviyyədə verilən dəstəyin və önəmin göstəricisi olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan və Ukrayna arasındakı mövcud strateji tərəfdaşlıq əlaqələri iqtisadi münasibətlərin məzmununu və inkişaf perspektivlərini şərtləndirir.

Nazir diqqətə çatdırıb ki, ticarət əlaqələri əməkdaşlığımızın əsas istiqamətlərindəndir. Bu sahədə müsbət dinamika müşahidə olunur. Bu ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 15,5 faiz artaraq 712 milyon ABŞ dollarından çox olub. İkitərəfli ticarət əlaqələrinin genişləndirilməsi və strukturunun şaxələndirilməsi üçün tədbirlər həyata keçirilir.

M.Cabbarov qeyd edib ki, iqtisadi-ticarət əlaqələrinin inkişafı məqsədilə 2018-ci ildə Kiyevdə Azərbaycan Ticarət Evi, bu gün isə Bakıda Ukrayna Ticarət Evi açılıb. Bu səmərəli mexanizm biznes dairələri arasında əlaqələrin genişləndirilməsi üçün əlavə imkanlar yaradır.



İki ölkə arasında investisiya əməkdaşlığından danışan nazir Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, nəqliyyat, xidmət və digər sahələrdə Ukrayna kapitallı şirkətlərin uğurla fəaliyyət göstərdiyini bildirib. O, Azərbaycan şirkətlərinin Ukraynada fəaliyyətinin məmnunluq doğurduğunu, şirkətlərimizin iqtisadi fəallığına bundan sonra da hərtərəfli dəstək veriləcəyini bildirib. Qeyd edib ki, hər iki ölkənin iş adamlarının iştirakı ilə təşkil edilən biznes forumlar və işgüzar görüşlər yeni əməkdaşlıq imkanlarının və iş adamları arasında qarşılıqlı etimadın yaranmasına, ticarət dövriyyəsinin artmasına töhfə verir.

İqtisadiyyat naziri Azərbaycanın investisiyalar üçün açıq olduğunu vurğulayaraq aparılan islahatlar, yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verib.

Ukraynanın İnfrastruktur naziri Vladislav Krikli isə çıxışında Ukrayna-Azərbaycan iqtisadi əlaqələri, əməkdaşlığın genişləndirilməsi imkanları barədə danışıb, bu sahədə həyata keçirilən tədbirlərin, həmçinin Azərbaycanda Ukrayna Ticarət Evinin açılmasının iqtisadi-ticarət əlaqələrinin inkişafında yeni imkanlar yaratdığını qeyd edib. Ukrayna iş adamlarının azərbaycanlı tərəfdaşları ilə birgə layihələrin icrasında maraqlı olduğunu vurğulayan nazir iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat, İKT, turizm və sair sahələrdə potensialı diqqətə çatdırıb.

Sonra Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Ukrayna Ticarət və Sənaye Palatasının rəhbəri Gennadi Çijikov müvafiq olaraq Azərbaycanın və Ukraynanın biznes və investisiya mühiti barədə məlumat veriblər.

Tədbir çərçivəsində Ukraynanın Xerson vilayəti Dövlət Administrasiyası və "SOCAR Energy Ukraine" şirkəti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Sonra tədbir işini sahibkarlar arasında ikitərəfli görüşlərlə davam etdirib.

## Qırğızıstan Joqorku Keneşinin Sədri Azərbaycana səfərə gəlib

Qırğızıstan Respublikası Joqorku Keneşinin Sədri Dastanbek Jumabekov TÜRKPA-nın Bakıda keçiriləcək 9-cu plenar iclasında iştirak etmək üçün dekabrın 17-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Dastanbek Jumabekovu Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb.

## Özbəkistan Ali Məclisi Senatının Sədri Azərbaycana səfərə gəlib

Özbəkistan Ali Məclisi Senatının Sədri Tanzila Narbayeva TÜRKPA-nın Bakıda keçiriləcək 9-cu plenar iclasında iştirak etmək üçün dekabrın 17-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Tanzila Narbayevanı Heydər Əliyev Beynəlxalq Aeroportunda Milli Məclis Sədrinin müavini Bahar Muradova qarşılayıb.

## Qazaxıstan Parlamenti Məclisinin Sədri Azərbaycana səfərə gəlib

Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin TÜRKPA-nın Bakıda keçiriləcək 9-cu plenar iclasında iştirak etmək üçün dekabrın 17-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Nurlan Niqmatulini Heydər Əliyev Beynəlxalq Aeroportunda Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Dekabrın 17-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il 14 dekabr tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyası, Vahid Azərbaycan Partiyası və "Ana Vətən" Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb, Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilər və qarşıdan gələn 23 dekabr bələdiyyə seçkiləri ilə bağlı cari məsələlərə də baxılıb.

QƏRAR № 18/78

## Mərkəzi Seçki Komissiyasının 14 dekabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 14 dekabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.12.2019*

QƏRAR № 18/79

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2019-cu il 9 dekabr tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Anar Adil oğlu İbrahimov
Nofəl Yunsur oğlu Bağırov
Nəcəf Əhməd oğlu Novruzov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.12.2019*

QƏRAR № 18/80

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyası Mərkəzi Şurasının 2019-cu il 7 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Vahid Azərbaycan Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Tural Feyruz oğlu Abbaslı
Cavanşir Cəlil oğlu Abbasov
Cavid İbrahim oğlu Hacıbəyli
Əhəd Fərhad oğlu Məmmədli
Bəhram Yolçu oğlu Sadıqov
Rüfət İbrahim oğlu Hacıbəyli
Mətləb Məhərrəm oğlu Aslanov
Səddam Saməddin oğlu Nəcəfov
Piri Hikmət oğlu Kazımov
Araz Mahir oğlu Teymurov
Rəhim Rüfət oğlu Əhmədzadə
Vüsal Şövkət oğlu Əliyev
Kərim Qələmşah oğlu Kərimli

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Toğrul Feyruz oğlu Abbasov
Ramin Rəsul oğlu Əbilov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.12.2019*

QƏRAR № 18/81

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Ana Vətən" Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Ana Vətən" Partiyası Ali Məclisinin 2019-cu il 7 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər "Ana Vətən" Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Həcərxanım Əsədağa qızı Məlikova
Xatirə Ağaverdi qızı Əhədova
Nüsrət Kərim oğlu Aşurov
Şahrza İslam oğlu Şəfəqqətov
Elnur Şirvan oğlu Əliyev
Elçin Fəzail oğlu Ağamalı
Safura Əvəz qızı Quliyeva
Tünzalə Sədrəddin qızı İsmayılova
Ceyhun Hüsaməddin oğlu Səfərov
Niyaməddin Həsən oğlu Səlimi
Rüstəm Habil oğlu Orucov
Gündüz Ağaməmməd oğlu Əliyev
Qədir Akif oğlu Məmmədov
Könül Arif qızı Hacıyeva
Kamalə Cəbrayıl qızı Muradəlizadə
Sübhan Yolçu oğlu Əmənov
Fərhad Mövlüd oğlu Baladadaşov
Malik Təriş oğlu Cavadov
Rüstəmbəy Ruhulla oğlu Nağıyev
Rəşad Sadıq oğlu Sadıqov
Elməddin Afiq oğlu
Nemət Məmmədağa oğlu İbrahimov
Məhərrəm Şuriyyə oğlu Babayev
Cavid Natiq oğlu Əzizov
Müşfiq Şəmsəddin oğlu Əfəndiyev
Xidmət Daşdəmir oğlu Orucov
Şahməmməd Nurulla oğlu Soltanov
Kənan Fidayıl oğlu Nəsibov
Bayram Mustafa oğlu Mustafayev
Rəşad Elbrus oğlu Abuşov
Nadir Seyfun oğlu Mustafayev
Fəridə Muxtar qızı Qafarova
Firidun Hacıxəlil oğlu Əliyev
İlham Qurban oğlu Hüseynov
Nurəddin Neftulla oğlu Talıbov
Rəvan Mürşüd oğlu Əmirxanlı
Etibar İbrahim oğlu Əhmədov

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Rəşadət Qüdrət oğlu Yaqublu

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.12.2019*

# Ən güclülər sırasındakı ən islahatçı ölkə

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət Azərbaycanı dünya birliyinin etibarlı tərəfdaşına çevirib. BMT Təhlükəsizlik Şurasının müvəqqəti sədrliyi, Qoşulmama Hərəkatına, Türkdilli Dövlətlər Birliyinə sədrlik, Avrasiyanın enerji, nəqliyyat, tranzit və logistika mərkəzinə çevrilməsi Azərbaycanı dünyada söz sahibi edib.

Göründüyü kimi, bütün bu uğurlar Prezident İlham Əliyevin məqsədyönlü və prinsipial siyasətinin bəhrəsidir və reytinq sıralaması da bu siyasətə verilən növbəti beynəlxalq dəyərdir.

Azərbaycanın 3 ildə bu reytinq cədvəlində 24 pillə irəliləməsi də böyük uğurdur. "U.S.News & World Report" jurnalında 2017-ci ildə açıqlanan reytinqdə Azərbaycan 69-cu, 2018-ci ildə isə 5 pillə irəliləyərək 64-cü olmuşdu. Bu il isə ölkəmiz 19 pillə yüksəlib. Siyahıda ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə bir neçə Avropa ölkəsini - Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

Əlbəttə ki, bu siyahıda 80 ölkədən biri olmağın özü də bir uğurdur. Çünki onlar 200-ə yaxın ölkənin içindən seçilmiş ən nüfuzlulardır. Qonşularımız Gürcüstanla Ermənistan heç bu cədvələ salınmayıblar.

Dənizlərə birbaşa çıxışı olmayan, ərazisi kiçik bir ölkənin Avrasiyadakı mövqeyini dünya görür və qiymətləndirir. Prezident İlham Əliyevin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkədə aparılan kompleks islahatlar hər il yeni rekordlarla yadda qalır.

Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə sırasına daxil edilməsi də cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi sosial-iqtisadi, struktur və kadr islahatlarının nəticəsidir. Dünya Bankının hər il hazırladığı hesabat biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. Azərbaycanın uğurları isə cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, dərin iqtisadi islahatlarına verilən beynəlxalq qiymət olmaqla bərabər reallığa çevrilən yeniliklərin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür.

Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin davamlı islahatları ilə Azərbaycan növbəti reytinq hesabatlarında mövqeyini daha da yaxşılaşdıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

23 dekabr bələdiyyə seçkiləri günüdür

# Seçkilərin demokratik keçməsi üçün hər cür şərait yaradılıb

*Əvvəli 1-ci səh.*

Dekabrın 23-də 34 min 366 seçici namizədlərə öz münasibətlərini bildirəcək. Seçkilərin şəffaf və demokratik keçməsi üçün bütün məntəqələrdə geniş hazırlıq işləri görülmüş, seçicilərin sərbəst şəraitdə istədiyi namizədə səs vermələri üçün lazımi şərait yaradılmışdır. Seçki günü dairəni əhatə edən 10 məntəqədə veb-kamera fəaliyyət göstərəcək. Seçici siyahıları dəqiqləşdirilərək məntəqələrin qarşısına vurulmuşdur.



Söhbət zamanı məlum oldu ki, dairədə 45 nəfər bələdiyyə üzvü olmaq üçün öz namizədliyini irəli sürmüşdür. Onlardan 17 nəfəri siyasi partiyaların nümayəndələridir. Bu partiyalar YAP, AXCP və Ana Vətən partiyalarıdır. Seçkilərin gedişini izləmək üçün 260 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir. Məntəqələrdə onlar üçün xüsusi yer ayrılmış, seçkiləri sərbəst müşahidə etmələri üçün şərait yaradılmışdır. Xəstələrin yaşadıqları mənzillərdə səs vermələri üçün xüsusi qrup təşkil olunmuşdur.

Dairəni əhatə edən seçki məntəqələrində yaşı 80-dən yuxarı olan 619 nəfər qeydiyyata alınmışdır. Onlardan biri İmran Tağıyevdir. O, 5 nömrəli seçki məntəqəsində səs verəcəkdir. Həmişə ölkəmizdə keçirilən seçkilərdə fəallıq göstərən ağsaqqal bu dəfə də gənclərə nümunə olmaq fikrindədir.

İlk dəfə seçkilərdə iştirak edəcək gənclərin sayında da artım qeydə alınmışdır. 158 nəfər gənc ilk dəfə səs verəcək. Onlarla görüşlər keçirilmiş, seçkilərin mahiyyəti və əhəmiyyəti barədə söhbətlər aparılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bütün səsvermə məntəqələri hazır vəziyyətə gətirilib

Bələdiyyə seçkilərinə sayılı günlər qalır. Bu siyasi kampaniyanın yüksək səviyyədə baş tutması üçün Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən nəzərdə tutulan işlər qrafikə uyğun həyata keçirilməkdədir. Artıq seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb, bütün səsvermə məntəqələri tam hazır vəziyyətə gətirilib, müşahidəçilərin seçki günü səsvermənin gedişini izləmələri üçün lazımi şərait yaradılıb.





9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə müşahidələrimiz də göstərdi ki, bələdiyyə seçkilərinə hazırlıq yüksək səviyyədə həyata keçirilib. Səsvermə məntəqələri avadanlıqlarla təchiz olunub. Qeydə alınan təşəbbüs qruplarının təşviqat işləri aparmaları üçün qanunvericiliyə müvafiq şərait yaradılıb.

DSK-nın sədri Həsən Bayramov dedi ki, respublikamızda demokratik seçkilərin keçirilməsi üçün zəruri ictimai-siyasi sabitlik, beynəlxalq təcrübəyə söykənən mütərəqqi hüquqi baza var. Ölkəmizdə demokratik seçkilərin keçirilməsi təcrübəsi ildən-ilə daha da təkmilləşdirilir. Bələdiyyə seçkiləri də tam azad, şəffaf və demokratik şəraitdə keçiriləcək. 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə 37 seçki məntəqəsi mövcuddur.

Seçki dairəsi üzrə səsvermə hüququna malik sakinlərin sayı isə 49 min 506 nəfərdir. 37 seçki məntəqəsinin 6-sı Binəqədi (7879 seçici), 31-i isə M.Ə.Rəsulzadə (41627 seçici) bələdiyyəsini əhatə edir. 49 min 506 seçicinin 929 nəfəri ilk dəfə səs verən gənclərdir. Dairədə 80-100 yaşlı seçicilərin sayı 786 nəfərə yaxındır.

9 saylı ikinci seçki dairəsi üzrə seçkilərin gedişatını izləmək üçün ümumilikdə dairə seçki komissiyası tərəfindən 506 nəfər müşahidəçi qeydə alınıb.

MSK tərəfindən seçki məntəqələri seçkiyə aid olan bütün zəruri əşyalarla - seçki kabinələri, qutular, seyf, ultrabənövşəyi lampalar, mürəkkəb balonları, stol, stul, kreslo, generator, istilik radiatorları, fənər, dövlət rəmzləri olan bayraq, gerb, məlumat lövhələri və s. ilə təchiz olunub. Bütün seçki məntəqələrinə seçici siyahılarının asılması üçün müasir standartlara cavab verən lövhələr verilib.

H.Bayramov bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar 15-17 oktyabr tarixlərində dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış 3 günlük kurslar keçirilib. İxtisaslaşdırılmış kurslarda seçkilərə hazırlıq prosesində dairə və məntəqə seçki komissiyalarının üzərinə düşən vəzifələrdən danışılıb. Bildirilib ki, qanunvericiliyə əsasən seçki günü məntəqələrdə görülən işlərin, səsvermə prosesi haqqında məlumatların cəmiyyətə çatdırılması üçün yerli və beynəlxalq müşahidəçilərin, KİV-in fəaliyyətinə qanunvericiliyə uyğun qaydada hər cür şərait yaradılacaq.

Noyabr ayının 25-28-dək keçirilən treninqlərdə isə iştirakçılara "Səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri", "Seçki günü məntəqə seçki komissiyalarının rolu və vəzifələri", "Seçki günü prosedurları və müstəsna hallar", "Səslərin sayılmasına hazırlıq", "Seçki bülletenlərinin təsnifatı, səslərin sayılması və yekun protokolun doldurulması", "Səsvermə prosedurlarına dair praktiki tapşırıqlar" mövzularında məlumatlar verilib.

Seçki dairəsi üzrə 10 seçki məntəqəsində veb-kameraların quraşdırılması nəzərdə tutulur ki, bunlar vasitəsilə səsvermənin gedişatını onlayn izləmək mümkün olacaq. Seçki məntəqələrində quraşdırılan səsvermə kabinələri və qutularının sayı səsvermə günü seçiciyə növbəsiz kabinəyə daxil olaraq öz iradəsini ifadə etməyə kifayət qədər vaxt imkanı yaradır.

10 saylı məntəqə seçki komissiyasının sədri Vaqif Ələsgərov dedi ki, ölkəmizdə demokratik seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Aparılan hazırlıq işləri deməyə əsas verir ki, 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə seçkilər yüksək səviyyədə keçiriləcək. Məntəqələrin maddi-texniki təchizatında heç bir problem yoxdur.

Beləliklə, 9 saylı Binəqədi ikinci seçki dairəsində həm dairə seçki komissiyasının, həm də məntəqə seçki komissiyalarının işləri ilə tanışlıq göstərir ki, bu seçki dairəsi bələdiyyə seçkilərinə ciddi hazırlaşıb. Bu, ondan xəbər verir ki, ötən seçkilərdə olduğu kimi, növbəti bələdiyyə seçkiləri də burada yüksək səviyyədə baş tutacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Xəzərdə də ön mövqeyə çıxır

## Bu dənizdə ən böyük donanma ölkəmizə məxsusdur

*Əvvəli 1-ci səh.*

Deməli, biz iqtisadiyyatın ən çətin sahələrinin yaradılmasına və inkişafına təkan verə bilən intellektual gücə malikik. Bu hadisə bir daha təsdiq etdi ki, gəmiqayırma zavodunun tikintisi ilə bağlı verilən qərar düzgündür. Zavodun inşası imkan verir ki, Xəzər Dəniz Donanmasına lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilsin.

İstehsal edilmiş tankerin uzunluğu 141, eni 16,9 metrdir. Ağırlığı 7875 ton olan bu tanker Volqa-Don MAX layihəsidir. Tankerin manevretmə bacarıqları ona Volqa-Don çayından keçmək imkanını verir. Ölçüləri böyük olsa da 4-5 min tondan artıq yüklə, daha dəqiq desək, 5-6 min tonadək yüklə Volq-Don kanalından keçmək imkanına malikdir.

Məlumat üçün bildirək ki, ölkəmizdə 20 tanker var və hazırda daha 4 tanker inşa olunur. Gəmiqayırma zavodu fəaliyyətini getdikcə daha da gücləndirir və burada yeni iş yerləri yaradılır, dövlət özü zavodu sifarişlərlə təmin edir. Gəmilərin tikintisinin maliyyə yükünün əsas hissəsini - 70 faizini Xəzər Dəniz Gəmiçiliyi, 30 faizini dövlət öz üzərinə götürür. Beləliklə, yeni yaranan bir sahə - gəmi tikintisi gəlirlə işləyən sahəyə çevrilir. Əgər əvvəllər Xəzər Dəniz Gəmiçiliyi dövlətdən dotasiya alırdısa, indi bu qurum yüksək standartlara cavab verir, beynəlxalq şirkət kimi qüsursuz və gəlirlə fəaliyyət göstərir.

Hazırda Azərbaycan Xəzər dənizində 200-dən çox gəmisi olan ən böyük donanmaya malik ölkədir. Buna baxmayaraq, gəmiqayırma zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin donanması üçün zəruri olan müxtəlif təyinatlı digər gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var. Zavodun istehsal gücü həm Azərbaycan, həm də qonşu ölkələr üçün gəmilər tikməyə imkan verir. Bu baxımdan görülən işlərin yüksək səviyyədə və vaxtında yerinə yetirilməsi təbii ki, gələcəkdə müştərilərin artmasına səbəb olacaq.

"Azərbaycan" bərəsi də Xəzərdə ən çox avtomobil və tır götürən gəmi olacaq. O, 56 vaqon, 50 tir və 100 sərnişin götürmək imkanına malikdir. İlk sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan "Ro-Pax" tipli "Azərbaycan" adlı gəmi-bərənin gövdə hissəsinin inşası başa çatmışdır. Qalan tikinti və quraşdırma işləri gəmiqayırma zavodunun yanalma körpüsündə davam etdiriləcək.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər dənizində yeganə bərə operatoru kimi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm halqasıdır. Bu qurum həmçinin Xəzərin Şərq və Qərb sahillərindəki dəmir yollarını dəniz üzərindən birləşdirir, Azərbaycan ərazisindən tranzit yüklərin daşınmasına və ümumilikdə tranzit potensialının reallaşdırılmasına xidmət edir. Bu məqsədlə ötən il 4, bu il 5 gəmi gətirilmişdir.

Yeni istismara verilən gəmilər Xəzər dənizində Azərbaycanın aparıcı mövqeyini qoruyub saxlamağa, xarici sularda fəaliyyətimizin genişləndirilməsinə imkan yaradır. Bu gəmilər həm də Azərbaycan ərazisindən artan tranzit yüklərin daşınmasında, dənizdə neft-qaz layihələrinin uğurlu və daha təhlükəsiz icrasında mühüm əhəmiyyət kəsb edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan UNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilib

Kolumbiyanın paytaxtı Boqotada UNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 14-cü sessiyasında Azərbaycan təşkilatın Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilib.

AZƏRTAC xəbər verir ki, sessiyada 5 qeyri-maddi mədəni irs nümunəsi Təcili Qorunmaya Ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına, 35 qeyri-maddi mədəni irs nümunəsi isə Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. İlk dəfə olaraq, bir qeyri-maddi mədəni irs nümunəsi siyahıdan çıxarılıb.

UNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 15-ci sessiyasının 2020-ci ilin 30 noyabr - 5 dekabr tarixlərində Yamaykanın Mədəniyyət, Gender, Əyləncə və İdman naziri Oliviya Qranqenin sədrliyi ilə bu ölkənin paytaxtı Kinqston şəhərində keçirilməsi ilə bağlı qərar qəbul edilib.

Sessiyada qəbul olunmuş qərara əsasən, Azərbaycan komitənin vitse-prezidenti seçilib. Ölkəmizlə yanaşı, Çin, Niderland, Qazaxıstan, Küveyt və Cibuti də komitənin vitse-prezidentləri seçiliblər.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqları ziyarət edib

Dekabrın 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqları ziyarət edib, onların səhhəti, müalicələrinin gedişi ilə maraqlanıb.



AZƏRTAC xəbər verir ki, görüş zamanı "Cırtdan. Novruz macərası" adlı ailəvi meqaşoudan əldə edilən vəsaitlə Milli Onkologiya Mərkəzinin uşaq şöbəsinə uşaqların müalicəsi üçün lazım olan dərman preparatları, eyni zamanda, burada





müalicə alan uşaqların əylənməsi üçün xüsusi kompüter oyunları, müxtəlif oyuncaqlar və hədiyyələr təqdim edilib.

Əyləncəli tədbir uşaqların böyük sevinci ilə qarşılanıb və onların əhvali-ruhiyyəsinə müsbət təsir edib.

"Cırtdan nağıllar aləmində" adlı ailəvi meqaşou ilk dəfə 2018-ci ilin dekabrında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Konqres Mərkəzində təşkil edilib. Bu təşəbbüs gələcəyimiz olan uşaqların milli ruhda böyüməsi, eyni zamanda, onların bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə almasına mühüm töhfələr verir. Həmçinin xeyriyyə xarakteri daşıyan layihədən əldə edilən gəlir xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən uşaqların sağlamlığının bərpa və təmin olunmasına yönləndirilir. Qeyd edək ki, cari ilin fevral ayında şoudan əldə olunan 397 min manat məbləğində gəlir uşaqların müalicəsi məqsədilə Talassemiya Mərkəzinə təqdim edilib.

# Bakı Dövlət Universitetində görkəmli alim Şirməmməd Hüseynovun barelyefi açılıb

"Bu gün Azərbaycan jurnalistikasının bayramıdır. Bakı Dövlət Universitetinin professoru, yorulmaz mətbuat tədqiqatçısı, Əməkdar jurnalist Şirməmməd Hüseynovun anadan olmasının 95-ci ildönümü münasibətilə onun əziz xatirəsini yad etmək üçün buraya toplaşmışıq. Şirməmməd Hüseynov elə bir iz qoyub gedib ki, bu, hər alimə nəsib olan xoşbəxtlik deyil. Şirməmməd müəllimin ən böyük sərvəti onun tələbələri, yetirmələridir. Bu gün Şirməmməd müəllimin uzun illər çalışdığı kafedranın qarşısında onun barelyefini açırıq. Hər dəfə bu barelyefi görərkən biz onu yenidən yad edəcəyik. Hazırda Şirməmməd müəllimin işi davam etdirilir. Çünki o, Azərbaycan jurnalistikasının tarixini araşdıraraq, çox böyük elmi irs qoyub. Şirməmməd Hüseynovun ömür yolu hər bir kəsə örnəkdir. Hazırda alimin qızları Azərbaycan elminin, mədəniyyətinin inkişafı yolunda səylə çalışırlar. Düşünürəm ki, bu gün Şirməmməd müəllimin ruhu bizimlədir. Biz də bu gün böyük alim qarşısında qismən də olsa, mənəvi borcumuzu yerinə yetirməyə çalışdıq".



AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 17-də Bakı Dövlət Universitetinin Mətbuat tarixi kafedrasının qarşısında görkəmli alimin barelyefinin açılış mərasimində universitetin rektoru Elçin Babayev deyib.

Rektor Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Şirməmməd Hüseynovun zəngin yaradıcılıq yolundan danışıb. Bildirib ki, alimin həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirib. O, hər zaman tələbələrlə müəllimləri bir komanda kimi ətrafında birləşdirə bilib.

Bütün iştirakçılara minnətdarlığını bildirən alimin qızı, Azərbaycan Milli Konservatoriyasının prorektoru Lalə Hüseynova Bakı Dövlət Universitetinin atası üçün müqəddəs məkan olduğunu və bu ali təhsil ocağını evi qədər sevdiyini söyləyib. Qeyd edib ki, Şirməmməd Hüseynovun ömrünün böyük hissəsi bu universitetlə bağlı olub. O, Bakı Dövlət Universitetini Azərbaycanın kiçik modeli hesab edirdi.

Lalə Hüseynova atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Şirməmməd Hüseynovun ömür-gün yoldaşı, "Elm və həyat" jurnalının redaktor müavini Ülkər Hüseynova görülən işə görə hər kəsə minnətdarlığını bildirərək deyib: "Əsl alim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha şahidi oldum ki, Şirməmməd müəllimin çoxlu müridləri var. Dərs dediyi, hətta dərs demədiyi tələbələr onu çox sevir. Mən onların xatirələrini oxuyanda çox kövrəlirəm. Həqiqətən, həyatda iz salan insanlar varmış və mən bunun canlı şahidiyəm. Şirməmməd Hüseynov nə az, nə çox, düz 74 il Bakı Dövlət Universitetində çalışıb, bu, heç də hər kəsə nəsib olan xoşbəxtlik deyil. O, ömrünün son gününə qədər işdən ayrılmadı. Onun xatirəsini belə sevinclə, məhəbbətlə yad etdiyinizə görə hamınıza təşəkkür edirəm".

Tədbirdə Milli Məclisin deputatları Əflatun Amaşov, Cavanşir Feyziyev, professorlar Cahangir Məmmədli, Solmaz Rüstəmova-Tohidi, "Real" televiziyasının rəhbəri Mirşahin Ağayev, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu və başqaları çıxış edərək bildiriblər ki, Azərbaycan jurnalistlərinin müdrik ağsaqqalı, görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov uzun illər milli mətbuatımızın qatı açılmamış səhifələrini arxivlərdən çox böyük vətənpərvərliklə, tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb üzə çıxararaq nəşr etdirib. Onun müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir.

Şirməmməd Hüseynovun azərbaycançılıq ideologiyasının sadiq keşikçilərindən biri olduğunu bildirən natiqlər vurğulayıblar ki, o, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının irsinin araşdırılmasında xüsusi xidmətlər göstərib. Daim həqiqətin, ədalətin, azad sözün tərəfdarı olub. Buna görə də təkcə elmi ictimaiyyətin deyil, sadə insanların da böyük hörmətini qazanıb.

Tədbirdə iştirakçılar Şirməmməd Hüseynovun kitabları ilə tanış olublar. Onlara alimin 95 illiyi münasibətilə "525-ci qəzet"in hazırladığı "Ustad" xüsusi buraxılışı təqdim edilib.

Sonra tədbir BDU-nun tədris-televiziya studiyasının dəyirmi zalında davam edib.

Tədbirdə bir daha görkəmli alimin ömür yoluna nəzər salınıb, işıq üzü görən kitablarının bütün zamanlar üçün aktuallığı vurğulanıb.

# "Azərbaycanda ərzaq və kənd təsərrüfatında Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsində özəl sektorun cəlb olunması və investisiya fəallığının təmin edilməsi" mövzusunda milli seminar keçirilmişdir





17 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) texniki və maliyyə dəstəyi ilə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində ərzaq və kənd təsərrüfatı sahəsində özəl sektorun rolunu əks etdirən seminar təşkil edilmişdir.

"Azərbaycanda ərzaq və kənd təsərrüfatında DİM-in yerinə yetirilməsində özəl sektorun cəlb olunması və investisiya fəallığının təmin edilməsi" layihəsi çərçivəsində təşkil edilmiş tədbirdə dövlət müəssisələri, beynəlxalq təşkilatlar, özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələri daxil olmaqla 180 nəfər iştirak etmişdir.

Seminarı giriş sözü ilə açan Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev seminar iştirakçılarını salamlayaraq qeyd etdi ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət və iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlığın inkişafı, xüsusən də dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində mühüm addımlar atılır.

Ölkədə qeyri-neft sektorunun, regionların inkişaf səviyyəsinin artan dinamikası Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş milli sahibkarlığın formalaşmasının bariz nümunəsidir.

Məruzəçi seminar iştirakçılarının diqqətinə çatdırdı ki, 12-13 noyabr 2019-cu il tarixdə Hindistanın Dehli şəhərində keçirilmiş Kənd Təsərrüfatının Maliyyələşdirilməsi üzrə VI Dünya Konqresində Davamlı İnkişaf Məqsədlərinin vacibliyini bir daha təsdiqləyərək, konqresdə 2030-cu ilədək aclıq təhlükəsini aradan qaldırmaq üçün kənd təsərrüfatına maliyyə yardımları təşəbbüslərinə dəstək verilməsi məsələsi müzakirə olundu. Dünya konqresində qeyd edilib ki, kənd yerlərində yoxsulluğun aradan qaldırılması və kənd təsərrüfatında məşğulluğun davamlı inkişafını təmin etmək məqsədilə kənd təsərrüfatının maliyyələşməsi ilə məşğul olan banklar, bank olmayan kredit təşkilatları, mikro-maliyyə və digər təşkilatların rolu artırılmalı, habelə onlar üçün müvafiq şərait yaradılmalıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsi və neft amilindən asılılığın aradan qaldırılması ilə bağlı tədbirlər sırasında kənd təsərrüfatı mühüm yer tutur. Bu il iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz artmışdır. Əlavə dəyərin 6,2 faizi məhz kənd təsərrüfatının payına düşür. 2019-cu ilin yanvar-oktyabr ayları üzrə kənd təsərrüfatının faktiki qiymətlərlə dəyəri 6.9 milyard manat təşkil etmişdir. 2019-cu ilin 10 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulu ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,2 faiz artmışdır.

Hazırda Azərbaycanda özəl sektorun ÜDM-də payı 84 faizə çatmışdır. Respublikada məşğul əhalinin 76 faizi özəl sektorda çalışır.

M.Musayev bildirdi ki, Azərbaycan Sahibkarlar Konfederasiyasının tərkibində 14 komissiya fəaliyyət göstərir. Bunlardan biri də Aqrar inkişaf komissiyasıdır. Bu komissiyada aqrar sektorun müxtəlif istiqamətləri, sahibkarların qarşılaşdığı çətinliklər, mövcud qanunvericiliklə bağlı təşəbbüslər müzakirə olunaraq hökumətə təqdim edilir.

Dayanıqlı inkişaf və layiqli əməyin təmin olunması Beynəlxalq Əmək Təşkilatı ilə konfederasiya arasında əməkdaşlığın prioritet sahəsini təşkil edir. Layiqli əmək üzrə ölkə proqramında əksini tapan prioritetlər üzrə sahibkarların vəzifə və öhdəlikləri təşviq edilir, bu sahəyə töhfə verilməsinə çalışılır.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirdi ki, seminar "2030-cu il Dayanıqlı İnkişaf Gündəliyi" haqqında məlumatlılığı artırmaq və Azərbaycanda DİM-in tətbiq edilməsinin rolu və cəlb edilməsi üzrə dövlət və özəl sektor arasında müzakirəni asanlaşdırmaq məqsədi daşıyır.

Kənd təsərrüfatı sahəsi Azərbaycanda, xüsusilə kənd yerlərində iqtisadi artımın və dayanıqlı inkişafın sürətləndirilməsində mühüm rol oynayır. Bu sahə neft sənayesi və inşaat sektorundan sonra ölkədə üçüncü ən böyük sektordur.

O, bildirdi ki, DİM-in özəl sektorun biznes modellərinə inteqrasiyası və dayanıqlı inkişaf üzrə hesabatla bağlı məlumatları və bölgədəki ən yaxşı təcrübələr, eləcə də iqlim dəyişikliyinə və ölkə tərəfindən müəyyən edilmiş töhfələrə xüsusi diqqət yetirməklə ümumi maraq dairələrində milli özəl sektorun iştirakını səfərbər etməyin yollarının müzakirəsi üzrə məlumat mübadiləsinə ehtiyac vardır.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev çıxış edərək qeyd etdi ki, əhalinin sağlamlığına, qida və su təhlükəsizliyinə qlobal iqlim dəyişikliyinin təsirləri artıq özünü göstərir. BMT-nin "2030-cu il Dayanıqlı İnkişaf Gündəliyi"ndə duran məsələlərin həyata keçirilməsi nəticəsində iqlim dəyişikliyinə nəzarət edilməsi zərurəti yaranıb. Dayanıqlı inkişafa sərmayə qoyuluşları iqlimin davamlılığını gücləndirməklə iqlim dəyişikliyinin qarşısını almağa kömək edir. İqlim dəyişikliyinə qarşı tədbirlər görmədən dayanıqlı inkişafa nail olmaq mümkün deyil. Ona görə də DİM-in bir qismi iqlim dəyişikliyinə təkan verən əsas səbəblərin aradan qaldırılmasına yönəlmişdir.

Daha sonra Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli çıxış edərək, ölkədə ərzaq təhlükəsizliyinin artırılmasına səbəb olan dayanıqlı qida və kənd təsərrüfatını təmin etmək, qida və kənd təsərrüfatı istehsalı sistemlərinin məhsuldarlığını artırmaq, kənd təsərrüfatı istehsalını şaxələndirmək istiqamətində Azərbaycan hökumətinin səylərini dəstəklədiklərini bildirdi. Qeyd olundu ki, qida sektoru ümumi istehsalın 32 faizini təmin edən qeyri-neft sənayesinin əhəmiyyətli bir hissəsini tutur.

Seminarda Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndəsi Melek Çakmak və digər məsul şəxslər çıxış etdilər.

Daha sonra seminar panellərdə 4 sessiya ilə işini davam etdirdi.

Sessiyalarda müasir dövr üçün perspektiv olan məsələlər müzakirə edildi. 1-ci sessiyada "2030-cu il gündəliyi, Ərzaq və Kənd Təsərrüfatında Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsində özəl sektorun rolu", 2-ci sessiyada "Biznes fəaliyyətində DİM-in yerinə yetirilməsini dəstəkləyən potensialın inkişafı", 3-cü sessiyada "Özəl sektor və DİM, region üzrə təcrübələr", 4-cü paneldə "Birgə maraq doğuran sahələrdə milli özəl sektorun iştirakının səfərbər edilməsi, iqlim dəyişikliyi və müəyyən edilmiş milli töhfələrə baxış" kimi mövzuların ətrafında müzakirələr aparıldı.

Həmin gün sessiyalardakı müzakirələrdən sonra seminar öz işini başa çatdırdı.

***"Azərbaycan"***

# Yenə Vətən yaxşı

30 ilə yaxın idi ki, qardaş Türkiyənin İstanbul şəhərində yaşayırdı. 1993-cü ildən İstanbul Universitetində riyaziyyat fənnini tədris edirdi. Xoşbəxt ailə başçısı idi, ziyalı ömrü yaşayırdı ailəsi, uşaqları ilə birlikdə. Hər il, əsasən yay aylarında Bakıya, oradan da doğulub boya-başa çatdığı, orta təhsilini başa vurduğu doğma Salyana gələr, əziz anası, bacı-qardaşları, qohumları, dost-tanışları, müəllimləri, məktəb dostları ilə görüşüb hal-əhval tutar, onların xeyir-şərində iştirak edər, sonra yenə İstanbula qayıdardı. Bu dəfə isə belə olmadı.

Salyana növbəti gəlişi oktyabr ayının sonlarına təsadüf etmişdi. Nəzərdə tutmuşdu ki, gəlmişkən yeganə bacısı İradə müəllimənin oğlunun nişan mərasimində iştirak etsin, sevincli günlərində bacısı, doğmaları ilə birlikdə olsun, ata əvəzi kimi öz xeyir-duasını versin. Amma dövrün, zamanın bəlası olan ürək tutması onu qəfil yaxaladı. Qardaşlarının, doğmalarının dediyinə görə, heç vaxt ürəyindən şikayətçi deyildi. 68 yaşın içində olmasına baxmayaraq, özünü gümrah və sağlam hiss edir, gündəlik olaraq idmanla məşğul olurdu.

Bunları gördükcə, eşidib duyduqca dünyanın qəzavüqədərinə, alın yazısına inanmaya bilmirsən. Bir el bayatısında deyilən "Ölməyə vətən yaxşı" sözləri yada düşür. Ei-oba, bütün Salyan əhli Məhəmməd müəllimin ölümünə acıdı, onu böyük bir izdihamla torpağa tapşırdı.

Məhəmməd Tağıyev Salyan şəhərində ziyalı ailəsində anadan olmuşdu. Atası Həmid Tağıyev, anası Sevil xanım müəllim olduqlarından məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə yanaşı, övladlarının da yaxşı oxuması, gələcəkdə bacarıqlı mütəxəssis, nümunəvi vətəndaş olması üçün daim əmək sərf etmiş, onları düzgün istiqamətləndirmişlər. Övladlarının hamısı ali təhsil almış, sevib seçdikləri peşəyə yiyələnmişlər.

Ailənin böyük oğlu Məhəmməd xüsusi istedada malik olduğu üçün hələ orta məktəbdə oxuyarkən riyaziyyatçı olmağa qərar vermişdi. 1967-ci ildə Salyan şəhər 2



saylı orta məktəbi qızıl medalla bitirən gənc Məhəmməd indiki Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Dərs əlaçısı olduğundan 3-cü kursda onu M. Lomonosov adına Moskva Dövlət Universitetinə dəvət etmişlər. O, universiteti fərqlənmə diplomu ilə bitirmiş, bu nüfuzlu təhsil ocağında saxlanılmışdır. Parlaq istedadı və gərgin əməyi nəticəsində az müddət ərzində əvvəl namizədlik, sonra da doktorluq dissertasiyası müdafiə edən M.Tağıyev bir müddət həmin təhsil ocağında çalışmışdır. Sonra vətənə qayıdıb Bakı Dövlət Universitetində dərs demişdir. 1993-cü ildə isə İstanbul Universitetindən dəvət almış və qardaş ölkədə professor kimi fəaliyyət göstərmişdir. Səmərəli və gərgin işinin nəticəsi olaraq türk komandasını riyaziyyat üzrə dünya olimpiadalarına çıxaran aparıcı mütəxəssislərdən biri olan Məhəmməd müəllimin olimpiadaya çıxardığı neçə-neçə tələbəsi indi dünyanın müxtəlif elm ocaqlarında - ABŞ, Braziliya, Meksika, Amaniyada, habelə Türkiyənin özündə çalışırlar.

M. Tağıyevin təhsil sahəsindəki xidmətləri Türkiyə dövləti tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Türkiyənin keçmiş Prezidenti Süleyman Dəmirəl tərəfindən Çan Qaya köşkünə dəvət olunmuş, Türkiyə Təhsil Nazirliyinin "Təqdirnamə"lərini almışdır. Son illər Milli Təhsil Nazirliyində "Elmi Olimpiada Akademiyası"nın qurucusu və baş konsultantı kimi fəaliyyət göstərmişdir.

Məhəmməd müəllim üç övlad atası idi. Onların üçü də atalarının yolunu davam etdirirlər. Bu isə onun zəhmətinin hədər getmədiyi, ocağının daha gur işıq saçacağı deməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "İdman jurnalistikası" magistr proqramının ilk məzunlarına diplomlar təqdim olunub




Dekabrın 17-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) "İdman jurnalistikası" magistr proqramının ilk məzunlarına diplomların təqdim olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, baş katibin müavini Azər Əliyev, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov, Böyük Britaniya səfirliyinin, BMT-nin Bakıdakı nümayəndəliyinin rəsmiləri, bir sıra dövlət və özəl qurumların nümayəndələri, həmçinin akademiyanın, ölkənin ən nüfuzlu ali təhsil müəssisələrinin müəllim və tələbə heyəti iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra məzunlardan bəhs edən videoçarx nümayiş olunub.

Mərasimdə çıxış edən ADBTİA-nın rektoru Fuad Hacıyev bildirib ki, "İdman jurnalistikası" magistr proqramı yalnız Azərbaycanda deyil, Qafqazda bir ilkdir. Proqramın yaradılmasında əsas məqsəd bu sahədə beynəlxalq səviyyədə rəqabətədavamlı kadrların yetişdirilməsidir.

Ölkəmizdə dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışan rektor Ulu Öndər Heydər Əliyev tərəfindən hələ sovet dövründə Azərbaycan gənclərindən ən nüfuzlu ali məktəblərə hər il 800-ə yaxın gəncin oxumağa göndərilməsindən, Prezident İlham Əliyevin gənclərin təhsil səviyyəsində yüksəldilməsi ilə bağlı verdiyi sərəncamlardan söz açıb. Üzünü təhsillərini başa vuran gənclərə tutan rektor onları gələcək fəaliyyətlərində İdman Akademiyasının adını uca tutmağa, savadlı və vətənpərvər olmağa, müstəqil ölkəmizin tərəqqisinə öz layiqli töhfələrini verməyə çağırıb.

Daha sonra məzunları təbrik edən Milli Paralimpiya Komitəsinin vitse-prezidenti, ikiqat Paralimpiya çempionu İlham Zəkiyev çıxış edərək birinci olmağın məsuliyyətindən söhbət açıb. O bildirib ki, əsas hekayə birinci olmaqdan sonra başlayır. "Ümid edirik ki, bu ilk məzunlar Azərbaycanda keçirilən mötəbər idman tədbirlərinin daha geniş şəkildə işıqlandırılmasında, ölkəmizin idman ölkəsi kimi beynəlxalq arenada tanıdılmasında böyük rol oynayacaqlar", - deyə İ.Zəkiyev əlavə edib.

Proqramın rəhbəri Britaniya Konsulluğu, Thomson Foundation və digər beynəlxalq təşkilatların müxtəlif media layihələrinə rəhbərlik etmiş, media sahəsində tanınmış beynəlxalq ekspert Dan Mason isə çıxışında bu proqramın regionda da bir ilk olmasına diqqət çəkib. O bildirib ki, proqramın yaradılmasında əsas məqsəd jurnalistika sahəsində ixtisaslaşmış kadrların yetişdirilməsidir. "Proqramımız üç məqsədə xidmət edir. Jurnalistika təhsilini yeni bir şəkildə təqdim etmək, idmana xidmət etmək və Azərbaycanı, akademiyamızı idman jurnalistikası sahəsində də regional mərkəzə çevirməkdir. Artıq hər gün yerli televiziya kanallarında məzunlarımızı görür, onlarla qürur duyuruq. Bu məzuniyyət bizim bayramımızdır. Bu sahədə nəinki regionda, dünyada Azərbaycan üçün birinci olmağı hədəfləyirik", - deyə D.Mason bildirib.

Daha sonra A.Rəhimov D.Masona Azərbaycandakı uğurlu fəaliyyəti ilə əlaqədar Gənclər və İdman Nazirliyi adından xüsusi diplom təqdim edib.

Sonda məzunlar adından çıxış edən proqramın magistrı Ceyhun Mustafayev akademiyanın rəhbərliyinə onlar üçün yaradılan şəraitə görə təşəkkür edib, hazırda media nümayəndəsi olaraq akademiyanın tədbirlərini, təlim-tədris prosesini işıqlandırmaqdan qürur duyduğunu bildirib.

Qeyd edək ki, "İdman jurnalistikası" magistr proqramına ilk qəbul 2017-ci ildə aparılıb və 6 tələbə proqrama qəbul olub. Onlar 2 il müddətində müasir teleradio avadanlığı ilə tam təchiz edilmiş akademiyanın Multimedia Mərkəzində yerli və xarici mütəxəssislər tərəfindən keçilən modullar çərçivəsində PR, audio və video, onlayn media sahəsində peşəkar bacarıqlara yiyələnib, beynəlxalq idman yarışlarına, nüfuzlu tədbirlərə media təmsilçisi qismində qatılmaq imkanı qazanıblar.

Proqramın iştirakçıları dəfələrlə onlayn radio və televiziya vasitəsilə canlı yayım edib, yüksək nailiyyətli idmançılar, görkəmli məşqçilər, könüllü və tələbələrdən müsahibələr alıblar. Onlar, həmçinin proqram çərçivəsində Böyük Britaniyaya səfər edərək 2 həftə müddətində BBC və digər nüfuzlu media orqanında təcrübə qazanıb, əsas təlim modullardan birini Şeffield Hallam Universitetində keçiblər.

Eyni zamanda, onlar bir neçə beynəlxalq tədbirin, o cümlədən cari ildə Bakıda təşkil olunan paracüdo üzrə dünya kuboku yarışlarının təşkili və keçirilməsində media dəstəyi göstəriblər.

ADBTİA-nın "İdman jurnalistikası" magistr proqramının ilk məzunları artıq bir sıra yerli teleradio şirkətləri, "Associated Press", BBC, "Əl Cəzirə" kimi nüfuzlu xarici media qurumları ilə əməkdaşlığa başlayıblar.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, dekabrın 17-də Mədəniyyət naziri Əbülfəs Qarayev Saatlı rayonunda, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov Hacıqabul rayonunda vətəndaşlarla görüşüb.

Nazir Əbülfəs Qarayev Saatlı rayon Mədəniyyət Mərkəzində Saatlı və Sabirabad rayonlarından olan vətəndaşları qəbul edib. Görüşdə sakinlər tərəfindən region muzeylərində qorunan qiymətli eksponatlar haqqında nəşrlərin hazırlanması, Bakı şəhərində fəaliyyət göstərən teatrlarda istifadə olunmayan geyimlərin bölgələrdəki mədəniyyət mərkəzlərinə verilməsi, "Adıgün" xalq folklor kollektivinin (Saatlı rayonu) 50 illiyi münasibətilə mükafatlandırılması, kitabxanaların uşaq ədəbiyyatı, musiqi məktəbinin musiqi alətləri ilə təchizatına dair müraciətlər səslənib.

Qəbulda həmçinin Sabirabad Dövlət Sosial-İqtisadi Kollecində mədəniyyət sahəsi üzrə ixtisasların açılması, "Kitab karvanı" layihəsinin regionlarda mütəmadi olaraq keçirilməsi, Saatlı Dövlət Rəsm Qalereyasının fondunun zənginləşdirilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər edilib.

Nazir müavini Rafiq Bayramovun Hacıqabuldakı Heydər Əliyev Mərkəzində keçirdiyi qəbulda rayon sakinlərinin müraciətləri uşaq musiqi məktəblərində ustad dərslərinin təşkili, gənc mədəniyyət işçilərinin rəsm, milli rəqs, teatr sahələri üzrə bacarıqlarının üzə çıxarılması məqsədilə kurslara ezam olunması, kitabxana fondlarının uşaq ədəbiyyatı ilə komplektləşdirilməsi, uşaq musiqi məktəblərinə musiqi alətlərinin verilməsi və digər məsələlərlə bağlı olub.

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələri nümayəndələrinin də iştirak etdiyi görüşlərdə bütün müraciətlər dinlənilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Bəzi müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması məqsədilə müvafiq tapşırıqlar verilib.

* * *

Dekabrın 17-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağdaş və Yevlax rayonlarından, dövlət komitəsi sədrinin müavini Səyavuş Heydərov Mingəçevir şəhərindən, sədr müavini Gündüz İsmayılov isə Bərdə rayonundan olan vətəndaşları qəbul ediblər.

Keçirilən qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Müraciətlər diqqətlə dinlənilib, bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin həlli üçün müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

# 2020-ci ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə 2020-ci ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata əsasən 2020-ci ilin iş vaxtı normasında qeyd olunur ki, Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin "2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 712s nömrəli Sərəncamına əsasən 2020-ci ildə aşağıdakı günlər iş günü hesab edilmir:

1, 2 yanvar - Yeni il bayramı;
20 Yanvar - Ümumxalq Hüzn Günü;
8 mart - Qadınlar Günü;
20, 21, 22, 23, 24 mart - Novruz bayramı;
9 may - Faşizm üzərində Qələbə Günü;
24, 25 may - Ramazan bayramı;
28 may - Respublika Günü;
15 iyun - Azərbaycan xalqının Milli Qurtuluş Günü;
26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü;
31 iyul,1 avqust - Qurban bayramı;
9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü
31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü.

AZƏRLOTEREYA

# "Yeni il sevincləri" tirajlı bayram lotereyasının oynanılmasında iştirak edin və qalib olun

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçiriləcək "Yeni il sevincləri" tirajlı bayram lotereyası cari il dekabr ayının 31-i tarixində "Space" televiziya kanalının canlı efirində yayımlanacaqdır.

"Yeni il sevincləri" tirajlı bayram lotereya biletinin qiyməti 2 (iki) manat təşkil edir. "Yeni il sevincləri" tirajlı bayram lotereyasının uduş fondunun oynanılması elektron lototronun vasitəsilə həyata keçirilir. Lototronda 1-dən 90-dək nömrələnmiş şarlar yerləşdirilir. Şarlar qarışdırılaraq təsadüf prinsipinə əsasən lototrondan birbir ardıcıllıqla çıxarılır. Oyunun mahiyyəti lototrondan çıxmış şarların nömrələrinin lotereya biletinin lövhələrində əks olunmuş rəqəmlər ilə üst-üstə düşməsindən ibarətdir. Lotereya biletinin üzərində iki oyun lövhəsi




əks olunmuşdur. "Yeni il sevincləri" tirajlı bayram lotereyasında möhtəşəm pul mükafatları öz şanslı sahiblərini gözləyir. Belə ki, əsas oyunun başlamasından öncə biletin seriya nömrəsi ilə 10 000 manat, turlarda 3 ədəd 5 000 manat və əsas oyun bitdikdən sonra biletin seriya nömrəsi ilə möhtəşəm 25 000 manat məbləğində pul mükafatı oynanılacaqdır.

Lotereya biletlərinin satışı həm çap olunmuş bilet şəklində, həm də "Mobil loto", www.azerlotereya.com veb-saytı vasitəsilə həyata keçirilir. "Azərlotereya" ASC-nin yeni innovativ layihəsi olan Mobil tətbiq (Mobil application) artıq lotereya həvəskarlarının istifadəsinə verildi. "Mobil tətbiq" proqram təminatını "Android" və "İOS" əməliyyat sistemləri ilə təchiz olunmuş smartfonlar vasitəsilə "App-Store" və ya "Playmarket"dən yükləyə bilərsiniz. "Mobil tətbiq" vasitəsilə lotereya biletlərini yoxlamaq, tirajların nəticələri ilə tanış olmaq və lotereya biletlərini əldə etmək mümkündür.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***Sizin "Azərlotereya"***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təkliflər sorğusu metodu ilə Bakı şəhəri Xəzər rayonunda yeni açılacaq DOST mərkəzi üçün qapıların və divar üzlüklərin, dekorativ işlərin satın alınması ilə əlaqədar keçirilmiş satınalma müsabiqəsinin qalibi "Dekoriko" MMC olmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzinin inzibati binaya server otağının tələb olunan standartlara uyğun avadanlıqlarla təchiz olunması üzrə elan olunmuş açıq tender prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

16 dekabr 2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən digər maşın və avadanlıqların və azqiymətli avadanlıqların satın alınması üçün keçirilən kotirovka sorğusunda "Lotus Co" MMC qalib olmuş və satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *kotirovka sorğusu elan edir*

Mərkəzi Bank üçün 19 litrlik qablaşdırılmış içməli dispenser suyunun satın alınması.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxs Elnur Musayevdən (telefon: 493-11-22, daxili 490) əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 27 dekabr 2019-cu il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və zərflər 28 dekabr 2019-cu il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) açılacaqdır.

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dəftərxana mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 2019-cu il 20 dekabr saat 12:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 20 oktyabr 2019-cu il tarixdə dərc edilmiş, 25 noyabr 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə Qeyri-formal məşğulluğun qarşısının alınması sahəsi üzrə xidmətlərinin satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "CİNEMA ART" MMC elan olunmuş və 09 dekabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynova qardaşı

**RÖVŞƏN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Xanlar Fətiyev

**CAVANŞİR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təlatüm Quliyev ailəsi ilə birlikdə yaxın dostu

**CAVANŞİR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin rəisi

**CAVANŞİR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Vaqif Ələkbərov, Rafael Tağıyev, Gülağa Şirinov və Rövşən Rzayev

**CAVANŞİR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8896
Sifariş 4257
Qiyməti 40 qəpik